## Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

9
OKTYABR
2019-cu il
№ 180 (4078)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır
Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTAN ŞURİYA TERRORÇULARININ QAFQAZA YENİ KÖÇÜNÜN TƏŞKİLİNƏ BAŞLAYIR

■ səh. 7 ■



■ səh. 4 ■

## Yeni Baş nazirimiz kimdir, hansı yolu keçib, Prezidentin hərtərəfli islahatlar siyasəti bu dəyişikliyi niyə zəruri etdi...



«Valday»dan sonra dünyada möhkəmlənən vahid fikir - «Qarabağ münaqişəsi daim durğun vəziyyətdə qala bilməz...»

■ səh. 9 ■

Azərbaycan-Rusiya yaxınlaşmasını dayandırmaq üçün Ermənistanın mümkün təxribat gedişləri...

■ səh. 6 ■

Lökbatana getməmək radikallar üçün bir özünüifşa, meriya qarşısında piket ikinci özünüifşa - AXCP sonadək tükənib...

■ səh. 5 ■

Əliyevin "Valday" klubunda məruzəsinin məşhur rus jurnalistlərini məşğul edən incə nüansları...

■ səh. 3 ■

Prezident Əliyevin "Valday"da Qarabağ bəyanatlarına Ermənistanın media və elm cameəsindən obyektiv reaksiyalar...

■ səh. 3 ■

AXCP-nin radikallarının icazəli piketi qanunsuz yürüşə çevirmək cəhdinə qətiyyətlə imkan verilmədi

■ səh. 2 ■

Uğursuz İrəvan sammiti və "Valday həmlələrindən" sonra Paşinyanın qapalı deputat toplantısı...

■ səh. 6 ■

Bu radikal müxalifət xaricdə Azərbaycana başucalığı gətirə bilər, ya bilməz...

■ səh. 5 ■

İsa Qəmbər Müsavat başqanlığına qayıtsa, guya nə baş verəcək...

■ səh. 10 ■

Banklar iqtisadiyyatımız üçün yeni risq yaradırlar...

■ səh. 11 ■

Azərbaycanda təzə Quran yazmaq iddiasına düşən var

■ səh. 13 ■

■ səh. 8 ■

Paşinyana "Bakı ilə diplomatik savaşın yeni mərhələsində İrəvan tam məğlub oldu" ittihamı erməniləri bürüyür...



■ səh. 2 ■

"Prezidentin bu qərarı işinin öhdəsindən layiqli gələ bilməyən iri məmurlara qəti xəbərdarlıq nümunəsi kimi də təqdirəlayiqdir"



■ səh. 10 ■

Radikalların bələdiyyə seçki passivliyinin hegemon səbəbi - hər bələdiyyəyə heç olmasa bircə namizəd verməyə də kadr yoxdur...



■ səh. 12 ■

Şamaxıdakı Çuxuryurd gölündə nə baş verir - nazirliyi hərəkətə gətirən səbəb...



■ səh. 15 ■

Orta məktəb buraxılışlarında ən çox "2-lər" kimya və xarici dil fənlərindən alınıb





# Novruz Məmmədovu Əli Əsədov əvəz etdi - Baş nazirlik postunda......

**Prezident İlham Əliyev N.İ.Məmmədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncəma əsasən, Novruz İsmayıl oğlu Məmmədov Azərbaycan Respublikasının Baş naziri vəzifəsindən azad edilib.

Prezident İlham Əliyev Əli Əsədovun Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Əli Hidayət oğlu Əsədov Azərbaycan Respublikasının Baş naziri təyin edilsin. Sərəncamlar imzalandığı gündən qüvvəyə minir.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirak ediblər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva** oktyabrın 8-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirak ediblər.

## TANAP-ın baş direktoru əldə edilən gəlirin 58 faizinin Azərbaycana düşəcəyini dedi

**TANAP qaz-boru kəməri tam gücü ilə işə düşdükdən sonra qazın nəql edilməsindən 1.45 milyard dollara qədər gəlir əldə ediləcək. "Trend"in məlumatına görə, bunu oktyabrın 8-də İstanbulda keçirdiyi mətbuat konfransında TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.**



Onun sözlərinə görə, bu məbləğin 58 faizi Azərbaycana düşəcək.

S.Düzyol bildirib ki, Azərbaycan, eyni zamanda, TANAP kəməri ilə daşınan öz təbii qazından gəlir əldə edəcək:

"Trans-Anadolu qaz boru kəmərinin (TANAP) işə salınması Azərbaycanla Türkiyə arası qaz nəqli həcmlərini artıracaq.

Nəticədə Türkiyənin Rusiyadan alınan qazdan asılılığını daha da azaldacaq".

Baş direktor əlavə edib ki, indiyədək TANAP-ın işlənməsi çərçivəsində qazın nəqlindən Türkiyə hokumətinə hər min kubmetrə 5,95 ABŞ dolları ödənilib.

# AXCP-nin radikallarının icazəli piketi qanunsuz yürüşə çevirmək cəhdinə qətiyyətlə imkan verilmədi

## *Bakı Şəhər Baş Polis İdarəsi məlumat yaydı*

**Özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurum və Azərbaycan Xalq Cəbhəsi Partiyası 50 nəfərin iştirakı ilə piket keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib.**



Baki-xeber.com xəbər verir ki, bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin yaydığı məlumatda deyilir. Məlumatda qeyd edilir ki, müraciətə baxılaraq, toplantının təşkilatçıları tədbirin oktyabrın 8-i, saat 15.00-dan 16.00-dək Bakı Şəhər İcra Hakimiyyəti ilə Dövlət İqtisad Universitetinin inzibati binalarının arasında yerləşən ərazidə keçirilməsi barədə məlumatlandırılıb.

Piket ərəfəsində təşkilatçılar Bakı Şəhər Baş Polis İdarəsinə dəvət olunaraq aidiyyəti qanunvericilik aktlarının tələbləri nəzərlərinə çatdırılıb, tədbirin dinc, qanuni qaydada, yazılı xəbərdarlıqda göstərilmiş və toplantıya qoyulmuş şərtlərə uyğun təşkil olunması barədə xəbərdar ediliblər. Lakin onlar "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 9-cu maddəsinin 5 və 12-ci maddəsinin III hissələrinin tələblərini kobud surətdə pozaraq, oktyabrın 8-i tədbir yerinə razılaşdırılmış vaxtdan qabaq toplaşmış, piketə dəstək adı altında qanunsuz aksiyalarına qoşulmaq barədə vətəndaşlara çağırışlar etmiş, toplantıya 50 nəfərdən çox tərəfdarını cəlb etməklə müəyyən olunmuş ərazidən kənara çıxmağa, qanunsuz küçə yürüşü keçirməyə cəhd göstəriblər. Nəticədə həmin ərazidə nəqliyyatın hərəkəti iflic olub, piyadaların sərbəst gediş-gəlişinə maneçilik yaranıb, ətrafdakı insanlara qarşı kobudluğa və digər qanunazidd hərəkətlərə yol verilib.

İctimai asayişin pozulması ilə müşayiət olunan küçə yürüşünə cəhdin və aksiya iştirakçılarının hüquqazidd əməllərinin qarşısı alınıb.

Piket üçün müəyyən edilmiş vaxtdan xeyli qabaq müxtəlif yerlərdə toplaşaraq hüquq qaydasını pozmuş 17 şəxs xəbərdar edilib, 4 nəfər barəsində inzibati protokol tərtib olunub. Həmçinin, polisin qanuni tələblərinə tabe olmayaraq küçə yürüşü keçirməyə cəhd edən 5 nəfər haqqında toplanmış inzibati materiallar məhkəməyə göndəriləcək, sərxoş halda olan və üzərində soyuq silah aşkarlanıb götürülən daha bir piket iştirakçısının əməlinə hüquqi qiymət veriləcək.

# Aydın Quliyev: "Prezidentin bu qərarı işinin öhdəsindən layiqli gələ bilməyən iri məmurlara qəti xəbərdarlıq nümunəsi kimi də təqdirəlayiqdir"

**Prezidentin təqdimatı əsasında Azərbaycan Baş nazirinin dəyişdirilməsi konstitusiyaya tam uyğun legitim proses olmaqla, bir neçə nöqteyi-nəzərdən diqqət cəlb edən hadisədir. Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

Baş redaktor bildirib ki, 2018-ci ildə yeni konstitusiyaya uyğun olaraq 7 illik dövr üçün keçirilən ilk prezident seçkilərindən dərhal sonra başlanmış kadr dəyişikliklərinin mövcud obyektiv proseslərə uyğun, sistemli şəkildə davam etdirildiyini görürük: "Xüsusilə son iki ildə ölkədə Prezidentin konseptual siyasəti əsasında aparılan struktur, iqtisadi və sosial islahatlar dövlət elitasının iri və orta kadrlar korpusunda ardıcıl dəyişikliklərlə tamamlanır və müşayiət olunur. Məlumdur ki, Baş nazir Konstitusiyaya uyğun olaraq sosial-iqtisadi sferanı əhatə edən mühüm səlahiyyətlərə malik yüksək vəzifəli şəxsdir və hazırda Baş nazir dəyişikliyinə ilk növbədə cənab Prezidentin ölkədə apardığı hərtərəfli islahatların tərkib hissəsi kimi baxmaq lazımdır. Baş nazirin dəyişdirilməsinin mövcud hərtərəfli islahatlar kontekstində proseslərin sürətini, məzmun və səmərəsini artıracağı ən aktual və real gözləntilərdən biridir. Açıq deyilməlidir ki, Prezidentin həyata keçirdiyi kadr dəyişiklikləri, əsasən, rəngindən asılı olmayaraq, qarşıya qoyulan vəzifələrin nə dərəcədə layiqli yerinə yetirilməsi kimi bir ölçü kriteriyasına söykənir. Zaman bütün sahələrdə Azərbaycanın qarşısına yeni vəzifə və problemlər çıxardığı üçün bütün kadrların maksimum töhfə ilə işləməsinə nail olmaq çox ciddi dövlətçilik əhəmiyyətinə malik problemdir. Aydın məsələdir ki, maksimum töhfələr vermək prinsipinə uyğunlaşa bilməyən kadrlar həm Prezidentin etimadını doğrulda bilmir, həm də iqtisadi, sosial, mədəniyyət, biznes, investisiya, ixrac və digər sahələrdə onlara ayrılmış səlahiyyətlərin icrasında ləngimələr, yerində saymalar, hətta tənəzzül əlamətləri özünü göstərməyə başlayır".

A.Quliyev vurğulayıb ki, Prezidentin hərtərəfli sosial-iqtisadi islahatlar siyasətinin daha böyük nəticələr verməsində Nazirlər Kabinetinin bir struktur olaraq potensiallarının tam şəkildə hərəkətə gətirilməsi böyük rola malikdir. Prezidentin Baş nazirin dəyişdirilməsinə yönəlik qərarı ölkədə islahatlar prosesinə keyfiyyətcə yeni məzmun və sürət vermək məqsədindən irəli gələn obyektiv xarakterlidir".

Ekspert qeyd edib ki, fasiləsiz olaraq aparılan islahatlar prosesində Nazirlər Kabinetinin bir institut kimi çəkisinin və fəallığının artırılması hazırkı islahatın ciddi hədəflərindən biridir: "Prezidentin son dəyişiklik qərarı işinin öhdəsindən layiqli gələ bilməyən, xüsusilə iri məmurlara qəti xəbərdarlıq nümunəsi kimi də təqdirəlayiqdir. Bu kontekstdə kadr dəyişikliklərinin davam etdiriləcəyi obyektiv bir proses kimi görünür. Eyni zamanda, Əli Əsədova göstərilən etimad Prezidentin kadrlar siyasətində peşəkarlıq, ardıcıllıq, dövlətçiliyə bağlılıq və rəsmi dövlət kursuna yüksək bələdçiliyin əsas götürüldüyünü bir daha ortaya qoyur. Bu hadisənin bütünlüklə məmur korpusunda iş və fəaliyyət əmsalını daha da artırmaq istiqamətində ümumi fəallığa müstəsna təsir göstərəcəyi şübhəsizdir.



Yeni Baş nazir təyinatı sosial-iqtisadi proses və islahatlar fonunda öz üzərinə hökumət səlahiyyətlərinə uyğun əsl məsuliyyətləri də götürməyi bacaran tam işlək Kabinetin formalaşması üçün də əhəmiyyətli perspektivlər açır.

Prezident Əliyevin kadr islahatlarının xarakterik xüsusiyyətlərindən biri də sosial sifarişi və ictimai zövqləri mümkün qədər nəzərə almaq istəyi ilə bağlıdır. Bu özünü indiyə qədərki bir sıra mərhələlərdə aydın göstərib. Şübhə yoxdur ki, Prezidentin kadr dəyişikliklərini islahatlar prosesinin tələb və tempinə tam uyğunlaşdırmaq konsepsiyası bütün hallarda müsbət nəticələnir və nəticələnəcək".

**Prezident İlham Əliyevin Soçidəki çıxışı və Rusiya Prezidenti ilə səmimi görüşü bu ölkənin mediasının əsas müzakirə mövzularından birinə çevrilib. Rusiyanın tanınmış ictimai xadimləri, jurnalistləri Ermənistanla müqayisədə rəsmi Bakının Moskva ilə əlaqələrinin daha geniş və sağlam təməllər üzərində inkişaf etdiyinə diqqət çəkiblər.**

# Əliyevin "Valday" klubunda məruzəsinin məşhur rus jurnalistlərini məşğul edən incə nüansları...




Rusiyanın tanınmış ictimai-siyasi xadimi, eləcə də Yeni Rusiya hərəkatının rəhbəri Nikita İsayev bildirib ki, Prezident İlham Əliyevin "Valday"dakı nitqi Ermənistan Baş naziri Nikol Paşinyanın populist çıxışları ilə müqayisədə faktlara əsaslanan və təsirli bir nitq idi.

Rusiyanın "Dünya silah ticarətinin təhlili mərkəzi"nin rəhbəri, eləcə də "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko isə bildirib ki, Azərbaycan Prezidentinin Soçidəki çıxışı Ermənistan Baş nazirinin daxili auditoriyaya hesablanan çıxışlarına sanballı cavab oldu.

Rusiyanın tanınmış araşdırmaçı jurnalisti Yevgeni Mixaylov isə açıqlamasında bildirib ki, Rusiyanın Ermənistanla münasibətlərinin gərginləşdiyi bir vaxtda Azərbaycanla münasibətlər sürətlə genişlənir və iki qonşu ölkə bir-birini strateji tərəfdaş kimi görür.

Yevgeni Mixaylov onu da qeyd edib ki, Azərbaycanın Rusiya ilə siyasi, iqtisadi və hərbi sahədə əməkdaşlığının genişlənməsində ən əsas faktor hər iki ölkənin dövlət başçılarının yaxın dostluq münasibətidir. Bu da bütün problemlərin asanlıqla həll edilməsində önəmli rol oynayır.

Rusiya Televiziya Akademiyasının üzvü, Rusiyanın məşhur jurnalistlərindən biri, televiziya aparıcısı, çoxsaylı sənədli filmin müəllifi Arkadi Mamontov da bu mövzuda fikirlərini bildirib.

Mövzuya münasibət bildirənlər arasında Rusiyanın nüfuzlu yazıçısı, tanınmış ziyalı, siyasi və ictimai xadim, "İzborsk" klubunun sədri və həmtəsisçisi, "Zavtra" qəzetinin baş redaktoru Aleksandr Proxanov da olub. O bildirib ki, İlham Əliyevin çıxışı zamanı zalda Ermənistanın nümayəndələri, hər hansı radikallar olmayıb: "Zal alqışlayırdı".

Göründüyü kimi, Rusiyanın bir çox tanınmış jurnalisti bu mövzuya münasibət bildirib. Onları İlham Əliyevin nitqində cəlb edən hansı nüanslar olub?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezident İlham Əliyevin çıxışı "Valday" klubunun nəinki XVI forumunun, ümumiyyətlə, yarandığı vaxtdan bəri ən təsirli nitqlərindən oldu: "Valday" klubunun XVI forumu Azərbaycan və Qarabağ məsələsi nöqteyi-nəzərdən də diqqətəlayiq idi. Azərbaycan Prezidentinin çıxışı Rusiya mətbuatında geniş təhlil edildi. Rusiya jurnalistləri, analitikləri onu təsiredici, kəsərli, cəsarətli və ləyaqətli çıxış kimi qiymətləndiriblər. Xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan Baş naziri Nikol Paşinyana haqq etdiyi cavabı verməsi bu forumun və nitqin tarixə düşməsinə səbəb oldu. İlham Əliyevin mötəbər qonaq qismində foruma dəvət olunmasının özü Azərbaycana olan yüksək diqqət və ehtiramdan xəbər verirdi.

"Valday" forumu Azərbaycanın öz mövqeyini bəyan etməsi üçün yüksək statuslu diplomatik müstəvi idi. İlham Əliyev bu fürsətdən kifayət qədər məharətlə yararlandı və bu, qeyd etdiyimiz kimi, rusiyalı müşahidəçilərin diqqətindən yayınmadı. Prezidentin nitqi Cənubi Qafqazda mövcud olan status-kvonun dəyişdirilməsi mesajını verməklə, təbii ki, danışıqların sonsuzadək davam etməyəcəyini də göstərdi. Çıxışın olduqca maraqlı və aktual olduğunu, dərin təəssürat doğurduğunu məşhur rusiyalı jurnalist Bıstritski etiraf edib. Onun da qeyd etdiyi kimi, Azərbaycan - Rusiya münasibətlərinə dövlət başçılarının şəxsi dostluğu müsbət təsir edən amillərdəndir".

Politoloqun sözlərinə görə, təsadüfi deyil ki, Prezidentin nitqi Ermənistanda təşvişlə qarşılanıb: "Xüsusilə bu çıxışın Rusiya mətbuatında geniş müzakirə obyekti olması erməniləri narahat edib. Ermənilər daim əmin idilər ki, Rusiyanın informasiya məkanı onların əlindədir və Marqarita Simonyan kimi Kremlin media siyasətinin icraçılarının erməni millətindən olması onlarda bir əminlik yaratmışdı. Lakin Azərbaycan Prezidentinin möhtəşəm çıxışına Rusiya mediasının diqqəti onu göstərdi ki, bu əminlik boş və mənasız özgüvəndən başqa bir şey deyil. İlham Əliyevin "Valday" nitqinin Rusiya mətbuatında təqdir olunması və dərin rəğbətlə qarşılanması Rusiya-Ermənistan əbədi müttəfiqliyi, Rusiyadakı erməni diasporunun sarsılmaz gücü və xüsusilə Rusiya mediası üzərində təsiri mifini darmadağın etdi və onun puç olduğunu göstərdi".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Ermənistanın daxilində Prezident İlham Əliyevin "Valday"dakı çıxışına müsbət reaksiyalar verildiyi haqda məlumat vermişdik. Artıq İlham Əliyevin çıxışına bəslənən rəğbət fərqli sahələri əhatə etməyə başlayıb. İlk belə reaksiya erməni saytlarından biri tərəfindən verildi.**

# Prezident Əliyevin "Valday"da Qarabağ bəyanatlarına Ermənistanın media və elm cameəsindən obyektiv reaksiyalar...

***Rauf Zeyni:** "Əslində, erməni ictimaiyyəti düzü söyləməyə cəsarət tapıb"*



Anjela Tovmasyan sahibi olduğu Hayeli.am ("Güzgü") saytında "Əliyevin Paşinyana gecikmiş, lakin güclü cavabı" başlıqlı məqalə dərc edib. Bu məqaləyə görə bir qrup Paşinyan tərəfdarı Anjela Tovmasyanı "anti-Qarabağ" mövqeyində ittiham edərək qəzetin redaksiyasına hücum təşkil edib. Onlar "Güzgü" mətbuat klubunun qapılarına yumurta atıb, plakatlar yapışdırıblar və bu media qurumunun bağlanmasını tələb ediblər.

Artıq Ermənistanın elmi cameəsindən də analoji bir mövqe ifadə olunub. Matenadaran İnstitutunun elmi işçisi Qayane Ayvazyan deyib: "Mən yüksək tribunalardan "Ararat bizim dağdır, bizim dağdır, bizim dağdır" ruhunda xarici siyasət nəğmələri eşitmək istəmirəm". Ayvazyan erməni KİV-nə açıqlamasında Ermənistan mediasının və məmurlarının İlham Əliyevin bəyanatına olan yanaşmalarını belə şərh edib: "İlham Əliyev Paşinyanın irəli sürdüyü iki zidd fikrə cavab verdi: a) Qarabağ Ermənistandır və nöqtə; b) Məsələnin həlli Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ xalqları üçün məqbul olmalıdır. Erməni mediası çıxışın məhz "Qarabağ Azərbaycandır və nida!" hissəsini yaymaqla, ehtirasları qızışdırır. Erməni məmurları bunu şişirdirlər. Amma özün hansı dildə danışırsansa, o dildə cavab almağın da tamamilə təbiidir. İlham Əliyev Paşinyana çox ağıllı irad tutaraq bildirib ki, Dağlıq Qarabağ xalqı yoxdur, Dağlıq Qarabağın bərabər hüquqlara malik azərbaycanlılar və ermənilərdən ibarət əhalisi var. Bu, çox savadlı formuldur, mən erməni tərəfin buna cavabını eşitmək istəyərdim".

Ermənistanın daxilindən qaynaqlanan bu reaksiyaları necə dəyərləndirmək olar?

Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun obyektiv səbəbləri var: "Birinci növbədə, ölkə başçısı, həmişə olduğu kimi, "Valday" klubunda da ciddi, konseptual çıxışı ilə yadda qaldı. Ölkə başçısının çıxışı milli, bəşəri, praqmatik yanaşma üzərində qurulmuşdu. Paşinyanla İlham Əliyevin, ümumiyyətlə, müqayisə olunmasını qüsurlu sayıram. Çünki onlar arasında fərq çox böyükdür. İlham Əliyev dərin siyasi məktəb və təcrübə keçmiş dövlət xadimidir. Paşinyan isə hakimiyyətə küçədən gəlib. Məhz bu amillər onların davranışı, hadisələrə yanaşmasında özünü göstərmiş olur. Beynəlxalq arenada da onların nüfuzu arasında kəskin fərq var. Həm intellekti, həm də dünyadakı proseslərdə oynadığı rola görə İlham Əliyev Paşinyanı çox arxada qoyur. "Valday" klubunda ölkə Prezidentinin səsləndirdiyi nida bəyanatı, əlbəttə, Ermənistanı narahat etməlidir. Ermənistanın savadlı kontingenti iki ölkə başçısının nə danışdığı ilə bağlı müqayisəni apara bilir. Artıq bundan çıxan nəticəni də dilə gətirə bilirlər. Bundan qorxmamaq Ermənistandakı rejimin dözülməzliyindən xəbər verir. Xüsusilə də aprel döyüşlərindən sonra onlar əmin olublar ki, Azərbaycan qarşısına qoyduğu istənilən məqsədə çata bilər. Həmin vaxt ermənilər çıxış edib deyirdilər ki, Qarabağ onların deyilsə, niyə övladları başqasının torpağında ölməlidir? Əslində, erməni ictimaiyyəti düzü söyləməyə cəsarət tapıb. Bu həqiqətləri əvvəl də dilə gətirə bilərdilər, sadəcə, qorxu xofunu indi sındırıblar. Hesab edirəm ki, get-gedə bu tendensiya artacaq. Ermənilər artıq bu zülmdən bezib".

*"Bu həqiqətləri əvvəl də dilə gətirə bilərdilər, sadəcə, qorxu xofunu indi sındırıblar"*

*Məhəmmədəli QƏRİBLİ*

# Yeni Baş nazirimiz kimdir, hansı yolu keçib, Prezidentin hərtərəfli islahatlar siyasəti bu dəyişikliyi niyə zəruri etdi...

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının yeni Baş naziri seçilib. Prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədov bu vəzifəyə namizəd göstərilib və Milli Məclisdə təsdiqlənib. Yeni Baş nazirin keçdiyi həyat yoluna nəzər salaq.**

Əsədov Əli Hidayət oğlu 1956-cı il noyabrın 30-da Naxçıvan şəhərində anadan olub. 1974-cü ildə Bakı şəhərindəki 134 saylı orta məktəbi, 1978-ci ildə isə Moskva Xalq Təsərrüfatı İnstitutunu bitirib. Əmək fəaliyyətinə 1978-ci ildə Azərbaycan SSR Dövlət Plan Komitəsinin təyinatına müvafiq olaraq Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş laborant kimi başlayıb. 1978-1980-cı illərdə hərbi xidmətdə olub.

1980-1989-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş laborant, aspirant, kiçik elmi işçi, elmi işçi, 1989-1995-ci illərdə isə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda dosent, kafedra müdiri vəzifələrində çalışıb.

1995-2000-ci illərdə birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub.

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 1998-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi, Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2012-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini təyin edilib.

Milli Məclisin plenar iclasında Əli Əsədov Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsindən sonra çıxış edib. O, çıxışında göstərilən yüksək etimada görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib. Ə.Əsədov qeyd edib ki, müasir Azərbaycan müstəqillik illərində böyük uğurlar qazanıb: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı titanik inkişaf yolu keçib. Dövlətimizin başçısının rəhbərliyi ilə bir sıra qlobal layihələr reallaşdırılıb. Qeyri-neft sektoru inkişaf edir. Azərbaycan kosmik ölkələr ailəsinə daxil olub".

O bildirib ki, ölkənin strateji valyuta ehtiyatları 26 dəfə artaraq 46 milyard dollara çatıb: "Bununla yanaşı, neft gəlirlərinin qeyri-neft sahəsinə yatırılması da böyük imkanlar yaradıb".

Əli Əsədov qeyd edib ki, əsas problem doğma Qarabağın işğal altında olmasıdır: "Ermənistan rəhbərliyinin populist çıxışına Azərbaycan Prezidenti tərəfindən layiqli cavab verilib. Qarabağın azad edilməsi üçün hərbi imkanlarımızın artırılması hər zaman Prezidentin əsas prioriteti olub". Əli Əsədov, həmçinin, bildirib ki, əməkhaqları 2,4, pensiyalar isə 3 dəfə artırılıb. O xatırladıb ki, sosial-iqtisadi problemlərin həlli üçün son dövrlər ciddi işlər görülür, əməkhaqları, təqaüdlər artırılır.

Milli Məclisin sədri Oqtay Əsədov çətin və məsuliyyətli işində Əli Əsədova uğurlar arzulayıb. Çıxışdan sonra yeni Baş nazir Milli Məclisi tərk edib.

Qeyd edək ki, Nazirlər Kabinetinin başlıca funksiyası iqtisadi sahəni kurasiya etməkdən ibarətdir.



Son illər ərzində aparılan islahatlardan görünürdü ki, siyasi rəhbərlik daha dinamik və prosesləri arxasınca apara bilən, daha aktiv Nazirlər Kabinetinin olmasında maraqlıdır. Eyni zamanda, sosial-iqtisadi sahədə edilən bir sıra yeniliklər bu qurumun məsuliyyətini bir qədər də artırmış olurdu. Bir sözlə, Baş nazirlik institutu həm də sosial-iqtisadi sahədə olan məsuliyyətləri öz üzərinə götürməli, həmin sahədə olan problemlərin həlli istiqamətində daha dinamik addımlar atmalıydı. Bütün bunlara keçmiş Baş nazirin zamanında nə dərəcədə nail olunub-olunmadığı barədə konkret nəsə deyə bilmərik. Ancaq onun sırf iqtisadiyyatı bilən bir kadrla əvəzlənməsi bu sahədə nəticələrin istənilən səviyyədə olmadığını söyləməyə əsas verə bilər. Maraqlıdır, bu barədə ekspertlər nə düşünürlər? Baş nazirlik institutu daha da aktivləşməklə sosial-iqtisadi sahədəki məsuliyyəti daşımağa qadir olmalıdırmı?

Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bütün dünyada aparılan iqtisadi islahatların başında baş nazirlər durur: "Bizdə Prezident üsul-idarəsidir. Ona görə də Nazirlər Kabineti sanki Prezident Administrasiyasının bir şöbəsi kimi çıxış edir. Ancaq bu belə olmamalıdır. Çünki onların əlində iqtisadi islahatları aparmaq üçün kifayət qədər səlahiyyət və resurs var. Hesab edirəm ki, ölkənin iqtisadi blokuna aid olan bütün məsələlərlə bağlı Nazirlər Kabineti daha operativ fəaliyyət göstərməlidir. İndiki zamanda Nazirlər Kabineti daha fəal olmalıdır. Çünki Prezidentin iradəsi ilə geniş islahatlar paketi hazırlanıb. Həmin paketləri həyata keçirmək üçün vaxt müəyyən edilib. Təbii ki, ölkə başçısı buna tək nəzarət edən deyil. Çünki onun başqa vacib işləri də var. Bu səbəbdən də Nazirlər Kabineti fəallığını bir qədər də artırmalıdır. Həmçinin, digər sahələrdəki iqtisadi inkişafa da təkan verməlidir. Görünür, köhnə Baş nazir bu islahatlar prosesinin fəlsəfəsini tam həyata keçirə bilməyib. Müəyyən yaxşı işlər görsə də, bütövlükdə, onun fəaliyyəti Prezidentin addımları ilə bir ahəng təşkil etməyib. Bu səbəbdən də könüllü şəkildə təqaüdə gedir. Onun yerinə isə sırf iqtisadçı olan bir kadr gətirildi. Yeni Baş nazir iqtisadçı olmaqla yanaşı, həm də dövlət idarəetməsinin müxtəlif sahələrində çalışıb və püxtələşib. Təcrübəli yeni Baş nazirdən yeniliklər gözləməyə dəyər. Zənnimcə, o, Prezidentin həyata keçirdiyi islahatlarla bağlı səlahiyyəti çərçivəsində məsuliyyəti öz üzərinə götürüb, iqtisadiyyatımızın inkişafına töhfəsini vermiş olacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Qardaş Türkiyə üçün Suriyada illərdir qorxduğumuz dövr başladı




**Türkiyənin Şimali Suriyada başlatdığı əməliyyatı şərh edən politoloq Aydın Quliyev öz "Facebook" səhifəsində belə yazıb. Politoloq daha sonra yazır:**

- Amerika Suriyanın şimalından qoşununu çəkir. Ərdoğan Fəratın şərqində PKK uzantısına qarşı əməliyyata hər an başlamağa hazır olduğunu deyir. Trampın dedikləri isə budur: "Türkiyənin iqtisadiyyatını məhv edərik, Avropa ölkələri Suriyanın şimalında saxladığımız İŞİD terrorçusu olan vətəndaşlarına sahib çıxmasalar, onları açıb buraxacayıq". Böyük terror təcrübəsi olan bu qaniçənlərin buraxılandan sonra nə edəcəkləri təxminən bilinir. Trampın Ərdoğana və Türkiyəyə necə acıqlı olduğunu bilirik. Amerikanın neçə ildir Suriyada İŞİD-lə mübarizədə kürdlərlə necə açıq müttəfiqlik etdiyini də bilirik. 1960-cı illərin ortalarında İraqda general Qasemin və Həsən əl Bakrın (bunlar Səddamdan qabaq olublar) prezidentlikləri dövründə üsyançı Müstafa Bərzaninin kürd hərəkatına necə kömək etdiyini də bilirik. Bərzaninin Amerikada dəfn olunduğunu da bilirik. Baxmayaraq ki, 40-50-ci illərdə o, SSRİ-nin adamı idi və hətta Naxçıvanda mühacir həyatı yaşamışdı. Atanın xidmətlərini unutmayan Amerika 2003-cü ildə İraqa müdaxilə edən kimi oğul Məsud Bərzanini hakimiyyətə gətirdi, müstəqilliyə bircə "sm" qalan Kürdüstan yaratdı və İraqı faktiki parçaladı.

İndi qardaş Türkiyənin Şimali Suriyada PKK uzantıları ilə neçə illik üzücü müharibəyə cəlb oluna biləcəyini kimsə bilirmi? Suriyadan çəkilirəm deyən Tramp, əslində, kürdlərdən əlini çəkəcəkmi? Bərzanilərlə 60 il əvvəl başlanmış müttəfiqlik bağlantısına sadiqliyi təsadüfən yada salmadım. Şimali Suriyada Ərdoğanın üzücü müharibəsinin sonda orada da müstəqilliyə bircə "sm" məsafəsi qalmış Kürdüstanın yaranmasına gətirib çıxarmayacağına təminat varmı? Bu yandan da Rusiya dedi ki, Türkiyə Suriyanın torpaq bütövlüyünə hörmət etməlidir, yeni nə vaxtsa çıxmalıdır...

Nəticəni birlikdə çıxaraq...

# Lökbatana getməmək radikallar üçün bir özünüifşa, meriya qarşısında piket ikinci özünüifşa - AXCP sonadək tükənib...

**Radikal müxalifət növbəti uğursuzluğunu yaşadı. Bu dəfə lap biabırçı şəkildə. Uzun illər ərzində heç bir izdihamlı aksiya keçirmək iqtidarında olmayan AXCP və onun orbitində fırlanan "Milli Şura" adlı qurumun şəhərin mərkəzində təşkil etmək istədiyi pozuculuq planı tam iflasa uğradı. Bir qədər hadisələrin xronologiyasına varaq.**

Həmin dairələr çox bəh-bəhlə tərifədikləri, əslində isə o qədər də kütləviliyin təmin olunmadığı 19 yanvar mitinqindən sonra kütləvi aksiyalar keçirə bilmədiklərinə etiraz üçün bu gün piket təşkil edib. 19 yanvar mitinqinə hakimiyyət icazə vermişdi, sadəcə, həmin aksiyadan çıxan müxalifət tərəfdarları küçələrdə, insanların sıx olduğu yerlərdə ictimai asayişi pozan hərəkətlər etdilər. Bu səbəbdən də əlaqədar qurumlar təhlükəsizlik amillərini nəzərə alıb, radikal dairələrə şəhərin mərkəzində aksiya keçirməyə bir müddət icazə vermədi. Bundan sonra edilən müraciətlər nəzərdən keçirildi və həmin dairələrə mitinq keçirmək üçün Lökbatanda stadion təklif olundu. Radikallar yolun uzaqlığını bəhanə edib, həmin təkliflə razılaşmadılar. Özlərinin təklif etdikləri yerlər isə şəhərin ən gur yerləri idi. Məqsəd aydın idi. İnsanların gur olan yerlərdə səs-küy, ajiotaj yaradıb, prosesə heç bir aidiyyəti olmayan vətəndaşları da cəlb etmək. Müxalifətin ənənəvi aksiya keçirdiyi "Məhsul" stadionunda təmir getdiyi üçün həmin yerə icazənin verilməsi də mümkün deyildi. Qısası, müxalifət təklif olunan yerdə mitinq keçirməkdən boyun qaçırdı. Əslində isə elə bunun özü də böyük bir fiasko idi. Çünki özünə, elektoratına arxayın olan bir siyasi qurum üçün məsafənin o qədər də fərqi olmamalıdır. Sadə məntiq deyir ki, sənin tərəfdarın varsa, hara olsa gələcək. Necə olur ki, Məhəmməd Əmin Rəsulzadənin doğum günündə müxalif partiyalar Novxanıda aksiya keçirə bilir, Lökbatana getmək isə mümkün olmur? Təbii ki, bütün bunlar bəhanədir və müxalif dairələrin elektoratının olmamasından qaynaqlanır. Hakimiyyət bu dəfə onları öz "silahları" ilə vurmuş oldu. Meriya AXCP və "Milli Şura"ya düz şəhərin mərkəzində piket keçirməyə icazə verdi. Doğrusu, bu qərar çoxlarını təəccübləndirdi. Ancaq aksiyadan sonra göründü ki, radikallara özünüifşa üçün bundan gözəl "şərait" yaradıla bilməzdi. İcazə verilən gündən başlayaraq, aksiyanın təşkilatçıları sosial şəbəkələrdə bacardıqları qədər təbliğat apardılar ki, izdihamlı tədbir keçirsinlər. Sual oluna bilər: bəyəm ixtisasca hüquqşünas olan Əli Kərimli mitinqlə piketin fərqini bilmir? Təbii ki, bilir. O zaman niyə qanunla 50 nəfərin iştirakı üçün icazə verilən piketdə kütləviliyin təmin olunmasına çalışırdı? Məqsəd bəllidir. Yaranmış fürsətdən istifadə edib, şəhərin mərkəzində qarışıqlıq yaratmaq, prosesə maksimum çoxlu sayda adam cəlb etmək.

Əli Kərimlinin sosial şəbəkələrdə vətəndaşları bu aksiyanı müşahidə etməyə çağırması şəhərin mərkəzində itaətsizlik mühiti və hətta mümkün olacağı təqdirdə qarşıdurma yaratmaq, özünü müxalifətdə real güc mərkəzi kimi təqdim etmək və müvafiq piar kampaniya aparmaq məqsədi daşıyıb. Bunu təşkilatçıların fəalları öz davranışları ilə də nümayiş etdirdilər və ortaya belə bir mənzərə çıxdı.

Aksiya başlamazdan əvvəl təyin olunmuş yerdə deyil, insanların intensiv hərəkət etdiyi dar səkidə müxtəlif şüarların səsləndirilməsi, ajiotaj yaratmaq cəhdləri baş verdi. Aksiyanın gedişi zamanı başqa bir maraqlı mənzərə də diqqəti çəkdi. Kənarda əlində "Xalq sizinlədir - cənab Prezident İlham Əliyev" şüarı ilə dayanan bir nəfərə cəbhəçilərin hücumu, plakatın onun əlindən alınması və cırılması bu insanların destruktiv, dözümsüz, təxribatçı qarağüruh olduğunu, heç bir sivil mübarizə metodlarını tanımadığını göstərdi. Digər maraqlı nüans isə aksiyada Əli Kərimlinin özünün görünməməsi idi. Buradan da məqsəd aydın olur. Çox güman ki, Əli Kərimli mərkəzdəki aksiyada toqquşmanın ola biləcəyini proqnozlaşdırdığı üçün evdə rahat oturmağa üstünlük verib. Bununla bir daha sübut edib ki, güdaza adam vermək siyasətindən hələ də əl çəkməyib.

Bütün bunlar bir daha açıq şəkildə nümayiş etdirir ki, AXCP və "Milli Şura"da toplaşan radikal ünsürlər normal qaydada, sivil, qayda-qanuna riayət etməklə kütləvi tədbir keçirmək iqtidarında deyillər. Qoy onların xaricdəki himayədarları da görsünlər ki, müdafiə etdikləri şəxslər və ya təsisatlar nəyə qadirdilər. Radikal dairələr bir daha gördülər ki, onların tələblərinə az sayda radikal tərəfdarından başqa kimsə dəstək verən deyil. Xalq ictimai asayişin təmin olunmasını, dinc və rahat həyat istəyir. Bunu da ölkənin əlaqədar qurumları onlar üçün təmin edə bilirlər. Aksiyada bir daha şahidi olduq ki, ölkədə ictimai asayiş etibarlı qorunur.

*Məhəmmədəli* **QƏRİBLİ**

# Bu radikal müxalifət xaricdə Azərbaycana başucalığı gətirə bilər, ya bilməz...

**Son vaxtlar müxtəlif nüfuzlu şəxslərin çıxışında biz radikal müxalifətin ünvanına səslənən ittihamların, iradların şahidi oluruq. Bunun da əsaslandırılması müxtəlif faktorlarla izah olunur. Məsələn, müxaliflərin vahid bir blokda konsolidasiya oluna bilməmələri, şəxsi maraqlarını xalq, dövlət maraqlarından üstün tutmaları, ölkənin xarici siyasəti ilə bağlı bəzən antimilli mövqedən çıxış etmələri, uzun müddət hakimiyyətə gələ bilməsələr də, siyasi arenanı tərk etməmələri və bunun müqabilində partiyanın daxilində avtoritarizm yaratmaları və s.**



## **Elşən Həsənov:** *"Telman müəllimə orada müxaliflər dedilər ki, biz kommunistlərə nifrət edirik, ona görə sizinlə əməkdaşlıq edə bilmərik"*

Radikal müxalif dairələr Azərbaycan hakimiyyətinin bir uğurunu da təqdir etmirlər. Xaricdə keçirilən qeyri-siyasi tədbirlərdə belə, bir soydaş kimi ölkəmizə dəstək verməkdən boyun qaçırırlar. Yalnız Azərbaycan dövlətinin ziyanına olan tədbirlərdə aktivlik nümayiş etdirirlər. Bütün bunlar onu deməyə əsas verirmi ki, belə müxalifət bizə xaricdə də başucalığı gətirmir?

Hazırda mərkəzçi mövqedən çıxış edən Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələdə şəxsi təcrübəsindən qaynaqlanaraq bəzi faktları nəzərimizə çatdıracaq: "Hesab edirəm ki, onların siyasi gedişləri öz baqajlarına uyğundur. Bundan artığını heç gözləməyə dəyməz. Kənardan başqa cür görünür, ancaq yaxından təmasda olanda görürsən ki, adam özünü normal idarə edə bilmirsə, xalqa nə gün ağlayacaq? "AXH" adlı qurumun yaradılması ilə bağlı edilən çağırışlara qoşulub mən də onlarla yaxından təmas qurmalı oldum. Çox böyük biabırçılıqların şahidi oldum. Açığını sizə deyim, onların səviyyəsi daha dərinə getməyə imkan vermir. Onlar ölkənin təmsilçiyi ilə bağlı nəsə düşünmürlər. Məsələn, sizə iki misal çəkəcəm, özünüz nəticə hasil edin. Mən hesab edirəm ki, Azərbaycanda xaricdən qızışdırılan radikal islamı neytrallaşdırmaq üçün bizdə olan İslam Demokrat Partiyasının inkişafına ehtiyac var. Onlar isə "AXH"də var gücləri ilə həmin partiyanın sədri Tahir Abbaslını sıxışdırmağa başladılar. Yalnız dindar olduğuna görə. Onları dərin məsələlər qəti maraqlandırmır. Başqa bir misal. Mən Kommunist Partiyasının Telman Nurullayevin rəhbərlik etdiyi qanadını bir bloka dəvət etdim. Həmin partiyanın Rusiya və beynəlxalq kommunist təşkilatları ilə çox yaxşı münasibətləri var. Telman müəllimə orada müxaliflər dedilər ki, biz kommunistlərə nifrət edirik, ona görə sizinlə əməkdaşlıq edə bilmərik. Halbuki, onun əli ilə Azərbaycanın bütün həqiqətlərini beynəlxalq arenalara çıxarmaq olardı. Bunların düşüncəsi budur. Təbii ki, bu cür düşüncə və əqidəyə sahib olan şəxslər və partiyalar bizi həm daxildə, həm də xaricdə biabır edirlər. Bunun başqa adı ola bilməz".

*Məhəmmədəli* **QƏRİBLİ**

# Azərbaycan-Rusiya yaxınlaşmasını dayandırmaq üçün Ermənistanın mümkün təxribat gedişləri...

**Son illər Azərbaycanla Rusiya Federasiyası arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha güclü inkişaf yolunu tutması növbəti dəfə Prezident İlham Əliyevin bu ölkəyə etdiyi səfərində, o cümlədən, orada irəli sürdüyü fikirlərində öz təsdiqini tapmış oldu.**



***Məhəmməd Əsədullazadə:** "Bundan sonra Rusiyada erməni lobbisi daha aktiv fəaliyyətə keçib, ikitərəfli əlaqələrə zərbə vurmaq üçün səylər göstərəcək"*

Ümumiyyətlə, dövlət başçısının Soçi səfəri və "Valday" klubu çərçivəsində aparılan müzakirələrdə müasir dövrün aktual məsələlərinin önə çıxarılması bir daha sübut etdi ki, Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinə yüksək qiymət verilir, iki ölkə arasında əlaqələrin inkişaf dinamikasından məmnunluq ifadə olunur.

O da məlumdur ki, Rusiya-Ermənistan münasibətlərində yaranmış soyuqluq və xüsusilə ermənilərin anti-Rusiya yönündə çağırışları get-gedə daha qabarıq özünü göstərir. Bunun başlıca səbəblərindən biri Nikol Paşinyanın uğursuz siyasətidirsə, digər səbəbi Azərbaycanın regionda artan nüfuzudur. Bütün bunlar Azərbaycana etibarlı, səmimi tərəfdaş imici qazandırıb. Təkcə bir fakta nəzər yetirək. Məsələn, İrəvanda Avrasiya İqtisadi İttifaqının sammitində iştirak edən Rusiya Prezidenti Vladimir Putin yalnız sammitin sonunda, daha dəqiq desək, ölkəsinə geri dönüşünə az müddət qalmış Paşinyanla qısamüddətli görüş keçirdi. Ölkəsinə geri döndükdən sonra isə Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə yüksək səviyyədə qarşılanmasını təmin etdi. O cümlədən, iki dövlət arasında olan yüksək xətli inkişafı xüsusilə vurğulayaraq, dövlət başçımızın həmin istiqamətdəki fəaliyyətini qiymətləndirdi.

Aydın məsələdir ki, Ermənistan Rusiya-Azərbaycan münasibətlərinin inkişafından və yuxarıda sadalanan proseslərdən çox narahatdır. Maraqlıdır, Azərbaycan-Rusiya yaxınlaşmasını pozmaq üçün Ermənistan mümkün hansı təxribatlara əl ata bilər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə rakursdan yanaşdı: "Rusiya-Ermənistan əlaqələrinin zəifləməsi fonunda Bakı-Moskva siyasi əməkdaşlığı yeni mərhələyə keçir. Nikol Paşinyan hakimiyyəti kifayət qədər anti-Rusiya siyasəti reallaşdırdı. Kreml rəsmi İrəvana etibar etmir. Biz bunun AİI-nin tədbirində Putinin Paşinyana olan soyuq münasibətində bir daha şahidi olduq. "Valday" klubunda Azərbaycan Prezidentinin yüksək səviyyədə qəbul edilməsi və iki ölkə arasında hərbi-texniki, iqtisadi əlaqələrin inkişafı İrəvanda həyəcanla izlənir. Çünki Ermənistan daim Azərbaycan-Rusiya əlaqələrinə zərbə vurmaq üçün kifayət qədər çalışır. Bundan sonra Rusiyada erməni lobbisi daha aktiv fəaliyyətə keçib, ikitərəfli əlaqələrə zərbə vurmaq üçün səylər göstərəcək.

### *"Kreml Azərbaycana daha da üstünlük verəcək"*

Əsasən Rusiya XİN-i ilə iş aparacaqlar. Çünki Rusiya XİN-də ermənilərin təəssübünü çəkən qüvvələr var. Ancaq Moskva Ermənistan rəhbərliyinin bu avantürasının fərqindədir. Hesab edirəm ki, Rusiya yalnız geosiyasi maraqlar çərçivəsində Qarabağ məsələsindən istifadə edir. Məhz buna görə Ermənistana stavka edir. Rusiya-Türkiyə əlaqələri daha da inkişaf edərsə, Azərbaycanla da paralel inkişaf edəcək. Rusiya Cənubi Qafqazda problemlərini dəf edərsə, Ermənistanı iqnor edəcək. Moskva fəal siyasət aparır. Kreml kuluarlarında müəyyən dairələr bundan narahatdırlar. Hesab edirəm ki, Kreml Azərbaycana daha da üstünlük verəcək".

***Vidadi ORDAHALLI***

# Uğursuz İrəvan sammiti və "Valday həmlələrindən" sonra Paşinyanın qapalı deputat toplantısı...

**Ermənistan Baş naziri Nikol Paşinyan onu dəstəkləyən "Mənim addımım" parlament fraksiyası ilə təcili və qapalı toplantı keçirib. Erməni mətbuatı sözügedən qapalı toplantının keçirilməsinin səbəbləri barədə ətraflı məlumat vermir. İnformasiya çox məhduddur. O cümlədən, Ermənistan rəsmiləri də bu barədə heç nə demirlər.**



***Elşən Manafov:** "Paşinyanı çaş-baş salan başlıca məsələ Prezident İlham Əliyevin "Valday" klubunda Qarabağla bağlı möhtəşəm çıxışıdır"*

Erməni mətbuatı toplantının səbəbini onunla əlaqələndirməyə çalışır ki, guya toplantının konkret gündəliyi olmayıb və ümumi müzakirə üçün yığışıblar, bəzi məsələlər ətrafında məsləhətləşmələr olub.

Ancaq Paşinyanın belə tələsik qapalı toplantı çağırmasının arxasında müəyyən səbəblər dayanır. Məsələ ondadır ki, Avrasiya İqtisadi İttifaqının İrəvan sammiti uğursuz alındı. Paşinyanın səylərinə rəğmən, tədbir sönük atmosferdə keçirildi. Lakin bundan fərqli olaraq, "Valday" Beynəlxalq Diskussiya Klubunun növbəti toplantısı daha möhtəşəm alındı. Ən başlıcası isə, Prezident İlham Əliyev sözügedən toplantıda çıxış edərək Paşinyanın bir müddət əvvəl səsləndirdiyi fikirləri, ortaya qoyduğu pozucu mövqeyi darmadağın etdi. Görünən odur ki, sözügedən tədbirdə Prezident İlham Əliyevin hücum xarakterli bəyanatları Paşinyanı narahat etdiyi üçün, öz komandası ilə məsləhətləşmələrə ehtiyac duydu. Reallıq ondan ibarətdir ki, Azərbaycanın Rusiya ilə sürətli yaxınlaşması, Paşinyan başda olmaqla, Ermənistan hakimiyyətini bərk narahat edib. Bu səbəbdən Paşinyan belə qapalı toplantı keçirmək qərarına gəlib.

Maraqlıdır, bəs ekspertlər Ermənistanda keçirilən qapalı toplantının səbəbini nə ilə əlaqələndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, qapalı toplantı həm İrəvandakı uğursuz tədbir, həm də digər səbəblərlə bağlıdır: "Bu həm Ermənistanın daxili iqtisadi reallıqları ilə əlaqədardır, həm də xirici siyasətdə yaşanan uğursuzluqlarla bağlıdır. Bir il ərzində Paşinyan hakimiyyətinin həyata keçirdiyi islahatlar lazımi nəticə verməyib. Bu da Paşinyanın artıq sosial bazasında olan ümidlərin sənginməsinə, hökumətə etimadın tükənməsinə səbəb olub. Digər tərəfdən, biz "Qarabağ klanı"nın yetərincə fəallaşmasını müşahidə edirik. Ən əsası, Qarabağdakı separatçı rejimin dəyişdirilməsi cəhdləri də heç bir nəticə verməyib. Bu da iki klan arasında gərginliyin daha da artmasına təkan verir. Başqa bir tərəfdən, İrəvandakı məlum sammit zamanı Putinin həbsdə olan Robert Köçəryanın həyat yoldaşı ilə görüşməsi Paşinyan hakimiyyətinə zərbə oldu. Eyni zamanda, yaşanan istefalar göstərdi ki, Paşinyanın komandası monolit deyil. Bu komandanın özündə də "Qarabağ klanı" ilə bu və ya digər formada təmasda olan nüfuzlu şəxslər var. Başqa bir tərəfdən, bir müddət əvvəl Paşinyan Rusiyada yaşayan erməni iş adamlarına müraciət etdi. Ancaq bu müraciətlər lazımi səmərə vermədi.

### *"Çox güman ki, bu məsələlər qapalı toplantıda müzakirə edilib"*

Bütün bunlarla yanaşı, Paşinyanı çaş-baş salan başlıca məsələ Prezident İlham Əliyevin "Valday" klubunda Qarabağla bağlı möhtəşəm çıxışıdır. İlham Əliyevin çıxışı göstərdi ki, Azərbaycan Qarabağla bağlı mövqeyində israrlıdır. Lazım gələrsə, Azərbaycan torpaqların azad edilməsi ilə bağlı hərbi variantı da istisna etmir. Bu kimi vacib bəyanat Rusiya Prezidentinin iştirak etdiyi tədbirdə verildi. Nəzərə almaq lazımdır ki, Rusiya Azərbaycanın strateji tərəfdaşıdır. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi artır. Hesab edirəm ki, bütün bu məsələlər Ermənistan hakimiyyətini bərk narahat edir. Çox güman ki, bu məsələlər qapalı toplantıda müzakirə edilib".

***Vidadi ORDAHALLI***

# Ermənistan Suriya terrorçularının Qafqaza yeni köçünün təşkilinə başlayır

**Qardaş Türkiyənin Suriyanın şimalında hərbi əməliyyatlara başlaması ilə dünyanın diqqəti yenidən bu bölgəyə yönəlib. Prosesin müəyyən müddətdən sonra Cənubi Qafqazla da əlaqəsinin olacağı gözlənildiyindən, baş verənlər burada da diqqətlə izlənir.**

Çünki Türkiyənin hərbi əməliyyatlarla sıxışdırdığı terror qruplaşmalarının bir hissəsinin Ermənistana, İrəvan vasitəsilə zəbt edilmiş Azərbaycan ərazilərinə yeni axını qaçılmaz sayılır. Xatırladaq ki, bundan əvvəl də Suriya və İraqda sıxışdırılan terrorçuların bir qismi məhz qeyd edilən ərazilərdə məskunlaşıb.

İndi isə Türkiyə terrorçulara qarşı bu dəfə daha genişmiqyaslı əməliyyata start verib. Yəni terrorçulara daha sərt zərbələr vurulacaq və bu da onların bölgədən axınını sürətləndirəcək. Qeyd edək ki, rəsmi Ankara artıq Münbiç və Fəratın şərqində anonsunu verdiyi əməliyyata başlayıb. Bölgədən gələn son məlumatlara görə, türk hərbi birlikləri Cerablusdan çıxaraq Münbiçə doğru irəliləyir. Bu fonda Türkiyə Hava Qüvvələri Suriyanın Hasake əyalətində PKK-ya bağlı YPG terrorçularının başçılıq etdiyi Suriya Demokratik Qüvvələrinin (SDQ) bazalarına aviazərbələr endirib. Bundan başqa, Türkiyənin müxtəlif şəhərlərindəki hərbi hissələrdən daha əvvəl Hataya göndərilən komando birlikləri və şəxsi heyət daşıyan zirehli texnikadan ibarət kolon təhlükəsizlik tədbirləri altında Kilis şəhərin mərkəzindən keçərək sərhəd xəttinə doğru irəliləyib. Onu da bildirək ki, Münbiç Fərat çayının qərbində yerləşən strateji şəhər sayılır. PKK və YPG terror təşkilatının buranı tərk edəcəyi barədə dəfələrlə vəd verməsinə baxmayaraq, ABŞ vədləri yerinə yetirməyib. Hətta yeni əməliyyatlar fonunda ABŞ prezidenti Donald Tramp Ankaranı "icazə verilənlər çərçivəsindən kənara çıxacağı" təqdirdə Türkiyə iqtisadiyyatını məhv edəcəyi ilə hədələyib: "Əvvəl də qəti şəkildə söyləmişdim və indi də bunu təkrarlayıram. Türkiyə, böyük misilsiz müdrikliyim sayəsində hesab etsəm ki, sərhədləri keçəcək bir addım atır, o zaman, əvvəllər də olduğu kimi, Türkiyə iqtisadiyyatını tamamilə məhv edəcəm". Onun sözlərinə görə, Türkiyə, Avropa ölkələri və digərləri saxlanılmış İŞİD-çilərə və onların ailələrinə diqqət etməlidir:"ABŞ gözləniləndən çox iş gördü, o cümlədən İŞİD xilafətini 100 faiz məğlub etdi. İndi bölgədəki digərlərinin, böyük imkanlara sahib olan bəzilərinin öz ərazilərini müdafiə etmələrinin vaxtı gəldi". Qeyd edək ki, Donald Tramp və türkiyəli həmkarı RəcəbTayyib Ərdoğan arasındakı telefon danışığından sonra Ağ Evin yayımladığı açıqlamada bildirilir ki, son iki ildə əsir götürülən bütün İŞİD döyüşçülərinə görə Türkiyə məsuliyyət daşıyacaq. Ankara isə bəyan edir ki, əməliyyatın məqsədi Suriya ilə Türkiyə arasındakı sərhədi Suriya kürdlərinin özünümüdafiə qüvvələrindən təmizləmək, orada təhlükəsizlik zonası yaratmaq və Türkiyədəki suriyalı qaçqınları oraya yerləşdirməkdir.

İndilikdə isə Suriyada sıxışdırılan terror qruplaşmalarının başqa məkanlara, o cümlədən Qafqaza üz tutması qaçılmaz sayılır. Onların buraya gəlişinə şərait yaradan əsas dövlət qismində isə işğalçı Ermənistan çıxış edir. Ümumiyyətlə, hadisələrin təhlili göstərir ki, Ermənistanın Suriya və digər ərazilərdəki terrorçularla getdikcə daha sıx işbirliyi mövcuddur. Bura hətta İŞİD terrorçu qruplaşması da daxildir. İŞİD-lə yanaşı, Ermənistan Suriyada genişmiqyaslı fəaliyyətini davam etdirən PKK ilə də sıx işbirliyi içindədir. Hələ bu ilin aprelində məlum olmuşdu ki, Suriyada PKK terror təşkilatının tərkibində ermənilərdən ibarət yeni terror qrupu yaradılıb. Qrupun tərkibinə Ermənistandan Suriyaya gedən daşnak-ermənilər və Suriya ərazisində yaşayan bəzi erməni qruplar qoşulub. PKK-nın tərkibində qurulan bu erməni qruplaşma terror təşkilatının Suriya qolu olan YPG-yə tabedir. Bundan sonra məlum oldu ki, bu vaxta qədər PKK-ya qucaq açan Ermənistan indi onun tərkibini elə ermənilərin hesabına da genişləndirmək üçün müvafiq addımlar atıb. Daha bir fakt odur ki, PKK-ya silah və maddi dəstək verən Ermənistan hazırda ASALA terror təşkilatını yeni adla dirçəltməyə başlayıb. Beləliklə, görünən budur ki, ermənilərlə terrorçular arasında işbirliyi kifayət qədər sıxdır. Məhz bu fonda Suriyada sıxışdırılan ierrorçuların Ermənistan sayəsində Qafqaza böyük axını tamamilə gözlənilən haldır. Buna qədər isə Türkiyə və terrorçular arasında müəyyən müddət sərt qarşıdurmanın yaşanması gözlənilir. Rusiyanın "Nezavisimaya qazeta" mətbu orqanı bu xüsusda yazır: "Türkiyənin hərəkətə keçməsindən sonra əsasını kürd birləşmələri təşkil edən Suriya Demokratik Qüvvələri (SDQ) döyüş texnikası və silahlı dəstələri Türkiyə sərhədinə dartır. Kürdlərin böyük qüvvələri Raqqa əyalətinin şimalında Təll-Abyad şəhərinin yaxınlığında yerləşib. Kürdlər bu qayda ilə "özlərini və xalqı" müdafiə etməyə




hazır olduqlarını göstərirlər. Bu haqda SDQ təmsilçisi Mustafa Bali bu yaxınlarda deyib: "Biz Türkiyənin istənilən şüurlu hücumunu tərəddüd etmədən bütün sərhəd boyu total savaşa çevirərik". ABŞ-ın hərbi idarəsi də kürdlərə müəyyən dəstək ifadə edib. Amerikalılar SDQ-nin fəaliyyət zonasında da ona praktik yardım göstərirlər. Əlbəttə, Suriyanın bütün sərhədi boyunca hücum olmayacaq. Ankara üçün indi SDQ güclərinin yerləşdiyi şəhərləri tutmaq vacibdir". Hadisələrin gedişi göstərir ki, Türkiyə bu xüsusda yaxın tezlikdə istəyinə nail olacaq. Qeyd edildiyi kimi, bu da terrorçuların Qafqaza, ilk növbədə Ermənistana axınına rəvac verəcək.

Bir məqamı da xatırladaq ki, Ermənistan 1992-ci ildən bəri öz torpaqlarını PKK düşərgələrinə açıb. Hazırda Gümrü, Spitak və İrəvan yaxınlığında ciddi terror düşərgələri mövcuddur. Eləcə də zəbt edilmiş Azərbaycan ərazilərinə terrorçuların mütəmadi axını qeydə alınır. Bütün bunlar isə terrorçuların Ermənistan sayəsində Qafqazda da möhkəmləndiyini aydın göstərir. O da faktdır ki, buna qarşı lazımi addımlar atılmasa, Ermənistan terrorçuların regiona axınını daha da gücləndirəcək.

***Nahid SALAYEV***

# Paşinyana "Bakı ilə diplomatik savaşın yeni mərhələsində İrəvan tam məğlub oldu" ittihamı erməniləri bürüyür...

## Əli Həsənov: "İlham Əliyevin bir çıxışı Ermənistanı qarışdırdı"

**Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı beynəlxalq hüquqa əsaslanan sərt, qətiyyətli və məntiqli bəyanatı Ermənistandakı daxili siyasi situasiyanı dəyişib, Ermənistanın baş naziri Nikol Paşinyanın tərəfdarları və əleyhdarları arasındakı qarşıdurmanı daha da gücləndirib.**

Xatırladım ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın işğalının nəticələrinə diqqət yetirdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən çoxdur yerinə yetirilmədiyini vurğuladı. Prezident İlham Əliyev Ermənistanın baş nazirinin "Qarabağ Ermənistanın hissəsidir və nöqtə" bəyanatının yalan olduğunu əsaslandıraraq cavab verdi: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Prezident İlham Əliyevin çıxışının əsas leytmotivi Dağlıq Qarabağ münaqişəsi və bu münaqişə ilə bağlı mövcud vəziyyətlə bağlı idi. Azərbaycan Prezidenti münaqişənin yaranması tarixindən və dalana dirənmiş danışıqlardan ətraflı bəhs etdi, atəşkəs rejiminə rəğmən Ermənistanın təxribatları səbəbindən davam edən hərbi əməliyyatlardan danışdı.

Paşinyanın son aylarda qapıldığı aqressiv ritorika, xüsusilə də Dağlıq Qarabağda, Xankəndidəki terrorçu hərbi xuntanın və dünyanın müxtəlif ölkələrindəki erməni diasporunu təmsil edən şəxslərin, habelə erməni lobbisinin nümayəndələrinin önündə çıxış edərkən verdiyi absurd bəyanatlar, əslində Ermənistanın işğalçılıq siyasətinin etirafının məntiqi davamı, rəsmi İrəvanın qapıldığı əsassız eyforiya idi. Şovinizm, aqressiya və işğalçılığın terror üzərində köklənmiş üzvi sintezinə çevrilən siyasət yürüdən Ermənistan rəhbərliyi ölkə iqtisadiyyatının uçurumda olmasının, işsizlik və mühacirətin milli fəlakət səviyyəsinə çatmasının fərqində olduğundan, məhz belə ritorika vasitəsilə erməniləri sakitləşdirməyə çalışırdı.

Təsadüfi deyildi ki, Paşinyan, əslində Dağlıq Qarabağda terrorçu-separatçı dəstələrdən birinin banilərindən və komandirlərindən olan, 1992-ci ildə döyüşdə öldürülmüş Leonid Azqaldyanın dediyi kəlmələri təkrarlamışdı. Paşinyan terrorçunun kəlməsini şüara çevirməklə rəsmi İrəvanın işğalçılıq, terror və aqressiv millətçilik siyasəti yürütdüyünü təsdiqləmiş oldu. Terrorçudan iqtibasa, Ermənistanın əvvəlki prezidentləri ilə yanaşı, ən qatı və radikal siyasətçiləri belə cürət etmirdilər: onlar anlayırdılar ki, belə düşünülməmiş, absurd və isterik bəyanat faktiki olaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlardan imtina etmək, işğalçılığın etirafıdır.

Ona görə də "Valday" Klubu təki mötəbər təşkilatın beynəlxalq tribunasında, 74 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndənin, dövlət və hökumət başçılarının, məşhur düşüncə və təhlil mərkəzlərinin rəhbərlərinin də qatıldığı tədbirdə söylənən "Qarabağ Azərbaycandır və nida işarəsi!" yerində və məqamında edilmiş çıxış idi.

Paşinyan Dağlıq Qarabağda hərbi xunta rejimi təmsilçiləri önündə ya erməni lobbisi təmsiçiləri çıxışında sərt ritorika seçmiş və bununla da Ermənistanın işğalçılıq siyasətini, əslində, ifşa etmişdisə, İlham Əliyevin çıxışı nüfuzlu beynəlxalq tribunada edilmişdi. Yanaşma, zehniyyət, diplomatik məharət fərqi, konstruktivlik və destruktivlik arasında fərq bundadır.

Erməni analitiklər və ekspertlər məcburiyyət qarşısında qalaraq etiraf edirlər ki, Azərbaycan Prezidentinin sanballı, məntiqli bəyanatı Paşinyana siyasət, geosiyasət, tarix və diplomatiya dərsi oldu.

Cənab İlham Əliyevin çıxışından sonra Ermənistan mediasının "selfi adam" adlandırdığı, baş nazir kimi zəif, siyasətçi kimi həddən ziyadə primitiv saydığı Paşinyanın kəskin tənqid olunduğu yazıların, şərhlərin və açıqlamaların sayı sürətlə artır.

İrəvanın diplomatik savaşın yeni mərhələsində Bakıya tamamən məğlub olması ilə bağlı ittihamların hədsiz çoxalması N.Paşinyan administrasiyasında ciddi təlaş yaradıb. Situasiya o qədər gərginləşib ki, belə yazılardan birinin dərc olunduğu qəzetin İrəvandakı ofisinə basqın edilib, redaksiya heyəti təhdid olunub. Hücum edənlərin Paşinyanın tərəfdarları olduqları, onların baş nazirin rəhbərlik etdiyi "Mənim addımım" hərəkatının funksionerləri tərəfindən idarə olunduqları ilə bağlı faktların Ermənistan mediasında yer alması Paşinyanın saxta "xalqdan gəlmə başa nazir" imicini, ilk zamanlar ona bəslənən etimad limitini alt-üst edib.

Ermənistandakı son hadisələr, eyni zamanda, Paşinyanın yalançı demokrat imicini də darmadağın edərək, onun əslində söz və ifadə azadlığına, istənilən formada tənqidə dözümsüz, siyasi opponentlərə düşmən kimi yanaşan nasist təfəkkürlü insan olduğunu aydın şəkildə nümayiş etdirdi.

Paşinyanın baş nazir postundakı səriştəsizliyi, müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə danışıqlardakı komik davranışları, beynəlxalq tədbirlərdəki sürəkli "selfi" çəkilişləri, ölkə iqtisadiyyatının və maliyyə sektorunun dərin böhranda olması, işsizlik və yoxsulluq səviyyəsinin artımı kimi problemlər Ermənistanda yeni sosial partlayışa səbəb ola bilər.



Erməni mediasının yazdıqlarına görə, Nikol Paşinyan üzləşdiyi uğursuzluqlardan və düçar olduğu məğlubiyyətlər seriyasından qurtulmağa can atır, bu məqsədlə də qapalı toplantılar keçirir. Bəzi məlumatlara görə, o, rəhbərlik etdiyi "Mənim addımım" siyasi hərəkatından olan deputatları toplayaraq ölkədəki ictimai-siyasi vəziyyəti, daha doğrusu, üzləşdiyi problemləri müzakirə edərək çıxış yollarını arayıb, "Valday" Klubunda Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatından sonra Dağlıq Qarabağ münaqişəsinin dinc danışıqlar yolu ilə nizamlanması prosesində bundan sonra tutacağı mövqe ilə bağlı məsləhətləşmələr aparıb.

İndi bir şey aydın olub: ictimai-siyasi və iqtisadi institutları ağır böhrana düçar olan, yürütdüyü işğalçılıq siyasəti və aqressiv ritorika səbəbindən transmilli, regional layihələrdən tamamilə kənar qalan, maliyyə, hərbi, humanitar, sosial və texniki resursları tükənməkdə olan Ermənistanın problemlərini bir zamanlar demokratik xilaskar kimi təqdim edilən Paşinyan həll edə bilməyəcək. Çünki onun özü hazırda Ermənistanın ən böyük problemlərindən biridir.

***Əli HƏSƏNOV***
***Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# "Valday"dan sonra dünyada möhkəmlənən vahid fikir - "Qarabağ münaqişəsi daim durğun vəziyyətdə qala bilməz..."

## "Qarabağ Azərbaycandır" sözləri ilə Paşinyanı axmaq vəziyyətdə qoydu - Putinin iştirakı ilə...

**Məlum həqiqətdir ki, bu gün şimal qonşumuz olan Rusiya Cənubi Qafqazda birmənalı şəkildə Azərbaycanı etibarlı və səmərəli tərəfdaş kimi qəbul edir. İki ölkə arasında siyasi, iqtisadi, hərbi, mədəni və digər istiqamətlərdə dərinləşən əlaqələr də qeyd edilənlərin real təsdiqi sayılır. Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev bütün bunların əslində təbii xarakter daşıdığını vurğulayır.**

O, "Valday" Beynəlxalq Diskussiya Klubuna region ölkələri arasından yalnız Azərbaycan dövlət başçısının dəvət edilməsini də təsadüfi saymır.

Dmitri Savelyev qeyd edir ki, bu gün ölkəsinin etibarlı tərəfdaşlara ehtiyacı var və bu xüsusda Azərbaycan müstəsna əhəmiyyət kəsb edir: "Son vaxtlar geosiyasi proseslər vektoru nəzərəçarpacaq dərəcədə Şərqə doğru istiqamət göstərməyə başlayıb. Qoca Avropanı istər daxili, istərsə də ABŞ-la münasibətlərdə ziddiyyətlərin parçaladığı bir vaxtda Asiya daha rasional və proqnozlaşdırılan əraziyə çevrilir. Şərqdəki tərəfdaşlarla həm daha səmərəli qarşılıqlı fəaliyyət göstərmək, həm də uzunmüddətli tərəfdaşlıq qurmaq olar. Bu nöqteyi-nəzərdən Rusiyanın xarici siyasətində Azərbaycanın rolu xeyli artır: Azərbaycan dəfələrlə konkret addımlarla sübut edib ki, Rusiya ona arxalana bilər. Rusiyanın AŞPA-ya qayıdışı məsələsində Azərbaycanın səs verməsi son örnəkdir. Odur ki, bu gün Avrasiya qitəsində münasibətlərin yeni formatını yaratmağın və Asiya dövlətləri ilə dialoq qurmağın vaxtı çatdığı üçün Azərbaycanla strateji tərəfdaşlıq Rusiyadan ötrü son dərəcə əhəmiyyətlidir.

Coğrafi mövqeyinə görə Şərqlə Qərb arasında yerləşən Azərbaycan üçün sanki tarixin özü tərəfindən böyük missiya hazırlanıb. Respublika inamla dünya siyasətində lider mövqelərə doğru hərəkət edir ki, bu da Azərbaycan iqtisadiyyatının istər intensiv inkişafı, istərsə də ölkədə ictimai-siyasi vəziyyətin sabit olması ilə şərtlənir. Xarici siyasət sahəsində münasibətlərini düzgün qurması sayəsində Azərbaycan qarşılıqlı fəaliyyətin müxtəlif formatlarının tamdəyərli iştirakçısına, ən vacib problemlərə dair forumların keçirildiyi beynəlxalq mərkəzə çevrilib. Odur ki, əksinə, Azərbaycan prezidentinin "Valday" Beynəlxalq Diskussiya Klubu kimi formatlı və belə gündəliyi olan tədbirə dəvət edilməməsi qəribə olardı". Ekspert xatırladır ki, "Valday"da çıxış zamanı Prezident İlham Əliyevin çıxışının əsas hissəsi Dağlıq Qarabağ probleminə həsr olunub. Bu sahədə hadisələrin inkişafı və münaqişənin nizamlanmasında Rusiyanın rolu barədə Dmitri Savelyev qeyd edir: "Dərindən əminəm ki, Ermənistan Azərbaycan ərazisini qeyd-şərtsiz azad etməyə borcludur. Dağıdılmış və təhqir edilmiş Dağlıq Qarabağ işğaldan azad edilmiş, çiçəklənən Azərbaycan torpağına çevrilməlidir. Görün, 2016-cı ildə azad edilmiş ərazidə nə qədər işlər görülüb! Bu onu göstərir ki, münaqişə beynəlxalq hüquqa müvafiq surətdə həll ediləndən sonra Dağlıq Qarabağı necə bir inkişaf gözləyir. Şübhəsiz ki, rusiyalılar Dağlıq Qarabağ ətrafındakı vəziyyətə laqeyd qala bilməzlər, çünki ölkəmiz ATƏT-in Minsk Qrupunun həmsədridir. Rusiya sərhədlərindəki münaqişənin eskalasiyasının Cənubu Qafqazda sabitliyə daim təhlükə yaratması Rusiyaya əsla lazım deyil.

Bu baxımdan Rusiyanın mövqeyi BMT Təhlükəsizlik Şurasının yanaşmalarından köklü surətdə fərqlənir. Nə qədər qəribə səslənsə də, Təhlükəsizlik Şurası öz qərarlarının necə icra olunacağına etinasız yanaşır. Təsadüfi deyil ki, Azərbaycan da, Türkiyə də son vaxtlar BMT-nin işinin yetərincə səmərəli olmaması və bu qurumun yenidən təşkil edilməsinin zəruriliyi barədə məsələ qaldırır. İkili standartlar yolverilməzdir! Qərarlar qəbul edilibsə, həyata keçirilməlidir, onların icrası isə dünya birliyinin nəzarətində olmalıdır. Qeyd etmək istəyirəm ki, hazırda danışıqlar prosesi mahiyyət etibarilə Ermənistan tərəfindən bloklanıb. İrəvan sülhyaratma prosesini açıq-aşkar ləngidir. Bunu həm ölkə rəhbərliyinin təxribat xarakterli bəyanatları, həm də erməni siyasətçilərinin anlaşılmaz kursu göstərir. Elə təəssürat yaranır ki, onların Qarabağ məsələsinə dair heç bir dəqiq strategiyası yoxdur, əks haldaErmənistanın hətta özünə ziyan vurmaq, perspektivli iqtisadi layihələrdən kənarda qalmaq hesabına danışıqları çıxılmaz vəziyyətə salmaq inadı nə ilə izah oluna bilər? Artıq hamıya aydındır ki, problemi həll etmək lazımdır. Münaqişə daima durğunluq vəziyyətində qala bilməz". Əslində, eyni yanaşmanı indi bir çox rus rəsmilərindən, ekspert dairələrindən də görmək mümkündür. Xüsusən də Prezident İlham Əliyevin "Valday" klubunda səsləndirdiyi fikirlərdən sonra bu məqam daha geniş miqyasda müşahidə olunur.

Fakt budur ki, Azərbaycanla Rusiya arasındakı siyasi dialoqun hazırkı səviyyəsi səmərəli əməkdaşlığın mühüm komponentini təşkil edir. Hazırda bütün parametrlər üzrə Azərbaycan-Rusiya əməkdaşlığı yüksələn xətt tendensiyasına malikdir. Bu gün Cənubi Qafqaz regionun geosiyasi və geoiqtisadi durumunu da əsas etibarı ilə Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsi müəyyən edir. Təbii ki, bütün bunların Dağlıq Qarabağ münaqişəsinə təsiri də mütləq sayılır. Bunu erməni parlamentinin sabiq sədr müavini, Ermənistan Respublika Partiyasının üzvü Eduard Şarmazanov da təsdiq edir. Onun sözlərinə görə, Ermənistanın xarici siyasətdə buraxdığı böyük səhvlərdən Azərbaycan məharətlə istifadə edir və məqsədinə daha sürətlə çatmağa başlayır: "Ermənistan hökuməti səhvlərindən dərs almamağa və ya xaricdə, ya da siyasi rəqiblər arasında günahkarlar axtarmağa davam edir". O bildirib ki, hakimiyyətin "parlaq" düşüncələrində bu fikir üstünlük təşkil edərsə, Qarabağ prosesindən yaxşı bir şey gözləmək olmaz: "Paşinyan Qarabağın danışıqlar masasına qayıtmalı olduğunu açıqladı. Buna cavab olaraq Ermənistan tərəfi ATƏT həmsədrlərindən sarı vərəqə aldı. Sankt-Peterburq və Vyana gündəmlərini rədd edən Paşinyan Düşənbə liftinin 1 dəqiqəlik razılaşmasını gündəmə gətirdi. Bütün bu müddət ərzində rəsmi Bakı təbliğatı da yüksək səviyyədə qura bildi.

Nəticə ona gətirib çıxardı ki, Paşinyan həmsədrlərin və yeni Ermənistan hökumətinin əli ilə tərəflərin açıqlamalarındakı "öz müqəddəratını təyinetmə hüququ" terminini Milan açıqlamasında "ədalətli həll" termini ilə əvəz edib. Bu, geriyə doğru bir addım idi, çünki "ədalətli həll" termini ilə Xankəndində bir şey, Bakıda isə başqa bir şey gözlədikləri məlumdur. Bir il yarım əvvəl Qarabağ xalqının adından danışıqlar aparmaq mandatına sahib olmadığını iddia edən biri Xankəndidə elan etdi ki, "Qarabağ Ermənistandır, vəsssalam". Emosional olaraq sıfır səmərəliliyi olan bu tərif konstruktiv yanaşmamızı tükəndirdi və həmsədr ölkə olan Rusiya Federasiyasına Ermənistanı danışıqlar prosesini əngəlləməkdə ittiham etmək imkanı verdi". Şarmazonov qeyd edib ki, son 20 ildə həmsədr ölkələrin Ermənistanı bu qədər ittiham obyektinə çevirən açıqlamaları olmayıb. Amma indi vəziyyət fərqlidir: "Bax, bunlar baş nazir Paşinyanın misli görünməmiş "uğurları"dır. Görünən odur ki, Ermənistanın danışıqlar prosesində mövqeyi zəifləyib. Bu, Paşinyanın Nyu-Yorkdakı BMT-nin yüksək kürsüsündən nizamlama prosesinin Azərbaycan xalqını məmnun etməsi barədə verdiyi bəyanatla sübut olunur. Bununla da rəsmi İrəvan Xankəndidə "Qarabağ Ermənistandır, vəssalam" deyə verdiyi bəyanatı təkzib edib. Amma Paşinyanın geri çəkildiyi bir vaxtda, çatışmazlıqlarımızdan istifadə edərək, Əliyev Putinin iştirakı ilə "Dağlıq Qarabağ Azərbaycandır" söyləyərək, Ermənistan baş nazirini axmaq vəziyyətdə qoydu".

Bütün bu qeyd edilənlər bir daha təsdiq edir ki, Rusiya-Ermənistan münasibətlərindəki problemlər, bu fonda "Valday" klubunda Azərbaycan liderinin çıxışı işğalçı ölkədə ciddi təşviş yaradıb. Məsələ həm də bundadır ki, Azərbaycan Prezidenti həmin çıxışında Rusiyanın geosiyasi güclənməsi faktını vurğulayaraq, Bakı-Moskva münasibətlərini də həmin müstəvidə qiymətləndirib. Yəni söhbət iki müstəqil dövlətin strateji tərəfdaşlığından, qarşılıqlı fayda verən əməkdaşlığından gedir. Azərbaycan Rusiya kimi qüdrətli bir dövlətlə, dünyada söz sahibi olan ölkə ilə bərabərhüquqlu tərəfdaş statusunda əməkdaşlıq edir. Lakin eyni fikirləri Ermənistan-Rusiya münasibətləri haqqında demək mümkün deyil. Çünki Ermənistan həm forpostdur, həm də faktiki olaraq heç bir əməkdaşlıq təşəbbüsü və proqramı ilə çıxış etməyib. Deməli, Moskva üçün Bakı İrəvandan çox öndədir. Rusiya Diplomatları Assosiasiyasının sədr müavini Andrey Baklanov da bununla razılaşdığını qeyd edir: "İki ölkə prezidentləri arasında münasibətləri nümunəvi olaraq səciyyələndirə bilərik, buna həm də iki ölkənin bir çox siyasi xadimləri arasında şəxsi münasibətlərin də əlavə olunması mühüm məsələdir.

Aramızdakı münasibətlər əsrlər boyu tarixdən qidalanan şəxsi münasibətlərə söykəndiyi üçün bu qədər möhkəmdir. Bunu da bizim böyük nailiyyətimiz kimi qəbul edərək qarşılıqlı fəaliyyətimizin yüksək səviyyəsini daha da gücləndirməyə səy göstərməliyik. Bu istiqamətdə atılan addımlar Rusiya-Azərbaycan əlaqələrində tamamilə yeni bir səhifə açır". Bu baxımdan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hadisələrin inkişaf axarının elə Rusiyanın fəal iştirakı ilə yaxın perspektivdə Azərbaycanın istədiyi müstəvidə cərəyan etməsi də tamamilə gözləniləndir. Azərbaycan tərəfi daim danışıqlar yoluna üstünlük verib və indi də həmin mövqedədir. Amma Ermənistanın bundan lazımi nəticə çıxara bilməməsi fonunda Bakı güc yoluna əl atmağa məcburdur və bu dəfə Rusiyanın Ermənistanı meydanda tək qoyacağına da şübhə yoxdur.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Radikalların bələdiyyə seçki passivliyinin hegemon səbəbi - hər bələdiyyəyə heç olmasa bircə namizəd verməyə də kadr yoxdur...

**Hər bir normal, demokratik cəmiyyətdə vətəndaşların sosial fəallığının, siyasi yetkinliyinin hərarət və səviyyəsini müəyyənləşdirən meyarlardan biri, bəlkə də başlıcası seçki institutudur. Ölkədəki prezident, bələdiyyə və parlament seçkilərindən ötən dövr ərzində radikal müxalifət düşərgəsində siyasi passivliklə müşahidə olunan kəskin böhran daha da dərinləşib.**




***Seyid Camal Əzimbəyli:** "Radikal müxalifətin yerlərdə namizədliyini irəli sürmək üçün kadr potensialı yoxdur"*

Məlum olduğu kimi, bu il növbəti siyasi kampaniya baş tutacaq. Belə ki, dekabr ayında Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Ancaq bələdiyyə seçkilərinə çox az müddətin qalmasına baxmayaraq, radikal müxalifətin timsalında hər hansı hazırlıq müşahidə edilmir. Seçkilərə hazırlıqla bağlı hansısa təbliğat xarakterli fəaliyyət, proqramın ortaya qoyulması və s. özünü göstərmir. Hansı ki, hakimiyyətə gəlməyi qarşısına məqsəd qoyan partiya bələdiyyə seçkilərinə xüsusi önəm verməlidir. Ağıllı, praqmatik mövqedən çıxış edən partiyalar buna xüsusi önəm verir və realist mövqedən çıxış edirlər. Ən azından, hər 5 bələdiyyə üzvündən birinin müxalifət təmsilçisi olması təbliğat nöqteyi-nəzərdən, partiya üzvlərinin işlə təmin olunması və digər məsələlər baxımından müəyyən üstünlükləri özündə ehtiva edir. Radikal müxalifət təmsilçiləri isə ənənəvi köhnə arqumentlərdən çıxış edərək, seçkilərdə passivliyini malalamağa çalışırlar. Ənənəvi arqumentləri ondan ibarətdir ki, bələdiyyələrin səlahiyyətləri məhduddur, maliyyə imkanları yetərli səviyyədə deyil, icra hakimiyyəti onların işlərini görür və s. Ancaq, əslində, radikal müxalifətin bələdiyyə seçkilərinə passiv yanaşmasının kökündə dayanan səbəblər başqadır. Bunun bir başlıca səbəbi onunla bağlıdır ki, radikal müxalifətin bələdiyyə seçkilərində namizədliyini vermək üçün komandası yoxdur. Yəni yerlərdə bu partiyaların kadrları yoxdur ki, onların namizədliyini irəli sürsünlər. Bələdiyyə seçkilərində iştirak edən şəxsin gərək idarəçiliklə bağlı müəyyən bacarığı, qabiliyyəti olsun. Görünən odur ki, belə kadrların olmaması üzündən radikal müxalifət prosesdə passiv iştirak edir. Digər tərəfdən, cəmiyyət bunlarla əməkdaşlıq etmək istəmir, bunda maraqlı deyil. İstəmir onlarla birlikdə seçkiyə getsn. Hər hansı bir radikal müxalifət üzvü fərdi şəkildə belə namizədliyini vermək istəyəndə cəmiyyət onları dəstəkləmir. Bax, məsələnin əsl mahiyyəti bununla bağlıdır.

Maraqlıdır, bəs ekspertlər bunu necə şərh edirlər?

*"...olmayan arqumentlər uydururlar"*

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, radikal müxalifətin kadr komandası olmadığına görə seçkidən yayınır: "Əvvəla partiya hakimiyyətə iddialıdırsa, danışdıqları ilə əməlləri uyğun gəlirsə, bütün seçkili orqanlarda təşkilat üzvlərinin iştirakı zəruridir. Bu, siyasi partiyalar üçün ən vacib məsələdir. O cümlədən, bələdiyyə seçkilərində iştirak etmək hər bir partiyanın maraqları çərçivəsində olmalıdır. Görünən odur ki, radikal müxalifətin yerlərdə bələdiyyə seçkilərində namizədliyini irəli sürmək üçün kadr potensialı yoxdur. Onlar isə hər vəchlə bu biabırçı mənzərəni gizlətməkdən ötrü olmayan arqumentlər uydururlar. Əslində isə bu sahədə radikal müxalifət partiyalarının durumu çox pisdir. Müxalifətin zəifliyi, elektoratın tamamilə sıradan çıxması və yerlərdə üzvlərinin o qədər də nüfuza malik olmaması səbəbindən seçkiyə getməkdən yayınırlar. Savadı olan mütəxəssislər, ümumiyyətlə, bu partiyalara qoşulmurlar. Yeri gələndə illərlə işsiz qalırlar, amma bu partiyalara qoşulmurlar. O da məlum həqiqətdir ki, cəmiyyət də radikal müxalifətlə əməkdaşlıqda maraqlı deyil. Bir səbəb də bununla bağlıdır. Bütün bunlar, nəticə etibarilə radikal müxalifətin seçkilərdən kənarda qalmasına gətirib çıxarır".

***Vidadi ORDAHALLI***

# İsa Qəmbər Müsavat başqanlığına qayıtsa, guya nə baş verəcək...

**Məlum olduğu kimi, oktyabrın 12-də Müsavat Partiyası növbəti 9-cu qurultayını keçirəcək. Partiya sədrliyinə 3 funksioner - indiki başqan Arif Hacılı, Yadigar Sadıqlı və Tofiq Yaqublu namizədliyini irəli sürüb. Digər iki namizəd hazırkı sədrin fəaliyyətini qənaətbəxş hesab etmədikləri üçün namizəd olduqlarını açıqlayıb.**




***Məhərrəm Zülfüqarlı:** "Uzun illər bu partiyaya rəhbərlik edən şəxsin yenidən başqan olması nəyisə dəyişməyəcək"*

A.Hacılı partiyanın 2014-cü ilin sentyabrında keçirilən 8-ci qurultayında başqan seçilib. Artıq namizədlər arasında başqanlıq uğrunda mübarizəyə start verilib. Hər üç namizəd həm paytaxt Bakıda, həm də rayonlarda öz təbliğatını aparır. 9 oktyabr tarixində Müsavat başqanlığına namizədlər arasında canlı debat keçiriləcəyi deyilir. Arif Hacılı debatda tanınmış müsavatçılar Yadigar Sadıqlı və Tofiq Yaqublu ilə üz-üzə gələcək və namizədlər öz platformalarını ortaya qoyacaqlar.

O da məlumdur ki, Müsavat Partiyası 2014-cü ildə keçirilən qurultaydan zəifləmiş olaraq çıxdı. Partiya parçalandı, bir çoxu bu təşkilatdan getdi. Ötən qurultaydan sonra xeyli adamın partiyadan getməsi səbəbindən son vaxtlar sosial şəbəkələrdə, mətbuatda belə fikirlər səslənir ki, uzun illər partiyaya başqanlıq edən İsa Qəmbər yenidən partiyaya rəhbərlik etməlidir. Guya ki, onun yenidən başqan olması partiyanın fəaliyyətində dönüş yaradacaq. Hansı ki, İsa Qəmbər 22 il bu partiyaya rəhbərlik etsə də, hansısa ciddi uğurlara imza ata bilməyib. Hələ onun başqanlığı dövründə partiyanı tərk edənlər olurdu. Bu proses 2003-cü ildə keçirilən prezident seçkilərindən sonra daha da sürətləndi. 2005-ci ilin parlament seçkilərində İsa Qəmbər namizədliyini verdiyi dairədə rəqibinə uduzdu. 2006-cı ildə Müsavat Partiyasının qurultayından sonra bir sıra tanınmış şəxslər partiyadan getdi. Bütün bu deyilənlərin fonunda, İsa Qəmbər tutaq ki, başqanlığa qayıtsa, nə baş verəcək ki?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, İsa Qəmbərin yenidən başqan olması nəyisə dəyişməyəcək: "Müsavat Partiyasında illərdir müşahidə olunan zəifləmə prosesini önləmək mümkünsüz görünür. Kiminsə bu istəkdə olması o demək deyil ki, nicat yolu İsa Qəmbərin geri qayıtmasındadır. Uzun illər bu partiyaya rəhbərlik edən şəxsin yenidən başqan olması nəyisə dəyişməyəcək. Bu heç etik cəhətdən də düzgün olmaz. Ona görə ki, o, partiyaya rəhbərlik etdiyi dövrlərdə hansısa uğurlar əldə edə bilməyib.

*"Bu cür boş ümidlərə qapılmağın mənası yoxdur"*

Belə olan halda, onun yenidən başqan olmağı heç nəyi dəyişməyəcək. Digər tərəfdən, əvvəllər heç olmasa İsa Qəmbər sağlam idi, səhhətində heç bir problem yox idi. İndi isə ürəyindən əməliyyat olunub, sağlamlığı yerində deyil.

**Müsavat Partiyasının da vəziyyəti əvvəlki kimi deyil. Partiya öz gücünü itirə-itirə gedir. Yəni doxsanıncı illərin Müsavatı deyil. Bu baxımdan mənə elə gəlir ki, bu cür boş ümidlərə qapılmağın mənası yoxdur. Yeni, cavan qüvvələrə meydan verilməlidir".**

***Vidadi ORDAHALLI***

**Real vəziyyətin təhlili bir daha göstərir ki, Azərbaycanda kommersiya banklarının depozit portfeli ilə kredit portfeli arasında faizlər baxımından kəskin fərq hələ də aradan qalxmayıb. Əksinə, bankların bahalı kredit siyasətini davam etdirməsi fonunda bu fərq daha da artır.**

# Banklar iqtisadiyyatımız üçün yeni risq yaradırlar...

Ekspertlər isə bütün bunları təhlükəli hal sayır. İlk növbədə o baxımdan ki, yaranmış durumda banklara əmanət qoyuluşunda insanlar artıq tərəddüd edir. Çünki depozit faizləri onlara ratıq lazımi qədər gəlir gətirmir. Hətta bəziləri depozitləri banklardan geri də çəkir.

Bu arada qeyd edək ki, Mərkəzi Bankın məlumatına görə, sentyabrın 1-də banklarda 8 milyard 561 milyon manat depozit olub. Bu isə əvvəlki aya nisbətən 19 milyon manat azdır. Bütövlükdə, aprel ayının əvvəli ilə müqayisədə ötən ayın əvvəlində depozitlərin həcmi 154 milyon manat azalıb. Rəsmi rəqəmlər göstərir ki, bankların kredit portfelində artımlar olsa da, vətəndaşların əmanətində artım qeydə alınmır. Banklarda əmanətlərin həcminin azalması depozit faizlərinin kifayət qədər aşağı olması ilə birbaşa bağlıdır. Ekspert araşdırmaları göstərir ki, banklar manatla istehlak kreditlərini 29, dollarla 20 faizlə təklif etsələr də, dollarla depozitlərə 1 faizdən az dividend ödəyirlər. Azərbaycanın aparıcı banklarının əksəriyyətinin internet səhifələrində depozit təkliflərinin təhlili göstərir ki, bəzi banklar 1 illik dollar depozitinə 0.1 faiz, 2 illik üçün 0.3 faiz, 3 illik üçün isə 0.5 faiz ödəyirlər. Təbii ki, belə aşağı faizlərlə banklara xarici valyutada heç kim tərəfindən əmanət qoyulmaz və real durum da bunu göstərir. Manatla da bağlı eyni vəziyyət müşahidə olunur. Bankların manat kreditləri orta hesabla 26 faizi keçsə də, depozitlər üzrə ödənişlər 7 faizə belə çatmır. Elə bu da bank əmanətlərinin azalmasına rəvac verir. Ekspertlər bunu təhlükəli hal sayır. Çünki bank vəsaitlərinin formalaşmasında depozitlər mühüm əhəmiyyət kəsb edir. Depozitlərin miqdarının azalması isə bankların maliyyə əməliyyatlarında ciddi çətinliklərlə üzləşməsi deməkdir. Bunu iqtisadçı Samir Əliyev də təsdiq edir. Onun sözlərinə görə, bankların vəziyyəti 2016-2017-ci illərlə müqayisədə yaxşılaşıb. Ekspert Prezidentin sərəncamından sonra banklara dəstək göstərildiyini bildirib: "Son dövrlər banklarda mübadilə sabitləşib, Prezidentin problemli kreditlərlə bağlı sərəncamından sonra banklara dəstək göstərilib. Mərkəzi Bank il ərzində banklara 60-80 milyon manat dəstək verir. Amma buna baxmayaraq, banklarla bağlı müəyyən problemlər hələ də qalmaqdadır. Düzdür, hazırda bankların vəziyyəti kritik həddə deyil. Bir neçə bank var ki, onların vəziyyəti tam yaxşılaşıb. Bəzi banklar depoziti yığsa da, kredit verilməsini reallaşdıra bilmir. Gələcəkdə bu depozitlərin geri qaytarılması ilə bağlı problemlər ola bilər. Bu baxımdan hələlik bank sektorunun böhrandan çıxdığını demək tezdir".




S.Əliyevin sözlərinə görə, hazırda bir neçə bankın vəziyyəti narahatlıq doğurur: "Rəqabət baxımından ad çəkmək doğru deyil. Amma ümumilikdə bu məsələ ilə bağlı bankları 3 qrupa bölmək olar: Birinci qrupa problemləri aradan qaldırılan bankları aid etmək olar. İkinci qrup banklarda problemlər qalsa da, vəziyyət kritik həddə deyil, yeni həll edilə bilər. Üçüncü qrup banklarda isə kritik hədd mövcuddur, amma fəaliyyət göstərir". Ekspert vəziyyəti ağır olan bankların müflis elan edilməsini indiki məqamda vacib sayır: "Ötən dövrlərdə 30 faiz bank sıradan çıxdı. Bu çox böyük göstəricidir. Hansısa bankın bağlanması əhalinin bank sektoruna olan inamının itməsinə səbəb olur. Bu da bank sektorunda təmərküzləşməni gücləndirir. Əhali tanınmış, güclü banklara əmanət qoyur ki, problem olmasın. Ona görə də bankların bağlanması çıxış yolu deyil. Sektorda iştirakçıların sayının az olması rəqabəti pozur. Fikrimcə, bankların gücləndirilməsi prioritet məsələdir. Müflisləşmə son variant olmalıdır. Buna qədər isə potensial tədbirlər görülməli, boşluqlar aradan qaldırılmalıdır". Amma o da xüsusi olaraq vurğulanır ki, yaranmış vəziyyətdə banklar özləri də müəyyən addımlar atmalıdır. Məsələn, yuxardı barəsində bəhs edilən depozitlə kredit portfeli arasında faizlər baxımından kəskin fərq aradan qalxmalıdır. Yəni əmanət faizləri ilə kredit faizləri arasındakı münasibətin qorunub saxlanmasına ehtiyac var. Çünki əmanətlər bankların cəlb etdiyi vəsaitlərin içərisində xüsusi paya malikdir. Bu səbəbdən fikirlər səslənir ki, Maliyyə Bazarlarına Nəzarət Palatası faizlər arasında limitin müəyyən edilməsi ilə bağlı artıq qəti addımlar atmalıdır. Çünki əmanət faizləri ilə kredit faizləri arasında fərqin bu qədər çox olması iqtisadi baxımdan da izah edilə bilməz. O baxımdan prosesin tənzimlənməsinə ehtiyac var. Əks halda banklar vətəndaşdan aşağı faizlə pulu cəlb edib daha yüksək faizlə kredit kimi təklif etməkdə davam edəcək, bu isə bank sektorunun özü üçün təhdid yaratmaqla yanaşı, həm də ümumi iqtisadiyyata müsbət heç nə vəd etmir.

Təhlillər göstərir ki, kreditlərin yüksək faizi bankların iddia etdikləri kimi onların risqlərini sığortalamır, əksinə, onlar üçün yeni təhdidlər yaradır. Problemli kreditlərin həcmindəki yeni artım da bunu aydın nümayiş etdirir. Eləcə də bankların iddia etdiyi risq amili yüksək faiz üçün yetərli səbəb sayılmır. Çünki həyata keçirilən islahatlar bankların bu bəhanəsini əslində aradan qaldırıb. İqtisadiyyatda risqlərin aşağı olması və bunun beynəlxalq maliyyə qurumları tərəfindən də bəyan edilməsi verilən kreditlərin geri qayıtma ehtimalının yüksək olmasını təsdiqləyir. Bu səbəbdən belə vəziyyət də bankların kredit faizlərini aşağı salmasına təsir göstərməlidir. Digər tərəfdən, kredit zəmanəti mexanizminin yaradılması da risqləri azaldan mühüm amildir. Lakin bütün bunlara rəğmən, banklar yenə də faizləri aşağı salmaqdan imtina edir. Məhz bu vəziyyət də bankların iqtisadiyyatda yeni təhdid yaratdığını deməyə əsas verir.

***Tahir TAĞIYEV***

**Son illər dünyada baş verən maliyyə böhranı müflisləşmə və iflas prosesinin aktuallığını da artırıb. Ölkəmizdə də fəaliyyət göstərən şirkətlərin bir qismi müflis olduğunu ictimaiyyətə bildirməyərək məhkəməyə müraciət edir.**

# "SKS Mənzil Tikinti" MMC özünü müflisləşdirdi, mənzillərə pul ödəyənlərin taleyi necə olacaq...



***Nüsrət İbrahimli:** "Şirkət müflis olanda sığorta öhdəliyi öz üzərinə götürür"*

Bu günlərdə Yasamal rayonu, M.Seyidov küçəsi, ev 41, mənzil 23-də yerləşən "SKS Mənzil Tikinti" MMC müflis elan olunması barədə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə ərizə ilə müraciət edib.

Qeyd edək ki, Azərbaycanda müflisləşən tikinti şirkətlərinin sayı çox deyil. Amma tikinti şirkətinin iflas olması insanların müflis olan şirkət tərəfindən tikilən mənzillər üçün öncədən ödədiyi vəsaitin batması deməkdir.

Bildirək ki, müflisləşmə infrastrukturunda münasibətlər "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Azərbaycan qanunvericiliyinə görə, müflisləşmə borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmamasıdır. Qanunvericiliyə görə, həm hüquqi şəxs (müəssisə, təşkilat, idarə), həm də fiziki şəxs (fərdi sahibkar) borclu ola bilər. İflasolmanın isə qanunvericilik əsasında 2 yolu var: məhkəmə və borclu müəssisənin özünün qərarı əsasında. Hansısa şirkət və ya təşkilatın borclu hesab edilməsi üçün məhkəməyə ərizə verilə bilər. Həmin ərizəni isə borclu şirkətin rəhbəri, yaxud tələbkarlar (şirkətin borclu olduğu tərəf) təqdim edə bilər. Məhkəmə məsələni araşdırdıqdan sonra müəssisənin müflisləşməsi təsdiq edilərsə, həmin müəssisəyə əmlak inzibatçısı təyin edir. Əmlak inzibatçısı isə məhkəmə qərarı qanuni qüvvəyə mindiyi gündən 15 gün ərzində ümumi yığıncaq keçirir. Bu, kreditorların ilkin yığıncağı hesab olunur və burada inzibatçı məhkəmə qərarını onlara elan edir.

*"Yeni şirkət onların yarımçıq qalan işlərini davam etdirir"*

Maraqlıdır, tikinti şirkətinin müflis elan olunduğu təsdiqlənərsə, həmin binadan ev alan sakinlərin taleyi necə olacaq? O insanlara hansısa formada yardım ediləcəkmi?

Məsələ ilə bağlı fikir bildirən əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli bildirdi ki, istənilən tikinti şirkəti öz fəaliyyətini öncədən sığortalamalıdır: "Şirkət müflis olanda sığorta öhdəliyi öz üzərinə götürür. Ümumiyyətlə, məhkəmə nə qərar çıxaracaqsa, o da olacaq. Bu halda, yanaşma bir qədər fərqli olacaq. Əvvəlki təcrübələrə istinad etsək, yerli icra qurumları müflis olan şirkətin öhdəlikləri, tənbi ki, onun xərclərini qarşılamaqla, başqa bir şirkətə tapşırır. Yeni şirkət onların yarımçıq qalan işlərini davam etdirir".

**Günel CƏLİLOVA**

**Son zamanlar ölkəmizin müxtəlif yerlərində, şəhər və kəndlərində mövcud olan təbii göllərin ekoloji vəziyyətinin fəlakətli olması barədə xəbərlər, şəkillər, videogörüntülər yayılır. Mütəxəssislər özləri də bildirirlər ki, bir sıra göllərin ekoloji vəziyyəti ürəkaçan deyil. Onlar bunu daha çox ekspedisiyalar, çöl tədqiqatları zamanı aşkar gördüklərini bildirirlər.**

# Şamaxıdakı Çuxuryurd gölündə nə baş verir - nazirliyi hərəkətə gətirən səbəb...



***İradə İbrahimova:** "Əraziyə cavabdeh Şamaxı rayon Çuxuryurd bələdiyyəsinin sədri Sultanpaşa Məlikov barəsində..."*

Söhbət ondan gedir ki, ətrafda yaşayan sakinlər hansısa səbəbdən həmin göllərin ətrafına və içinə zibil atırlar. Bu da göllərin süni yollarla çirklənməsinə gətirib çıxarır.

Mətbuatda Şamaxı rayonundakı Çuxuryurd gölünün xəstəlik mənbəyinə çevrilməsi barədə xəbərlər və videogörüntülər yer alıb. Yerli sakinlərin mətbuata verdiyi məlumata görə, rayonun Çuxuryurd kəndindəki eyniadlı göldə zibil əlindən tərpənmək olmur. Gölün sahilində yerləşən zibil yığını ətrafda yaşayan insanları ciddi şəkildə narahat edir. Kənd sakinləri iddia edirlər ki, mövcud problemin həlli üçün aidiyyəti qurumlar tərəfindən heç bir tədbir görülmür. Yerli icra hakimiyyəti orqanı tərəfindən Çuxuryurd kəndində zibil qutuları quraşdırılmadığından, insanlar məişət tullantılarını birbaşa gölün sahilinə atmaq məcburiyyətində qalırlar. Bu da göl üçün ekoloji fəlakət deməkdir.

Oxu.az-ın yazdığına görə, zibil yığınından gələn üfunətli qoxu yaxınlıqdakı yaşayış evlərində də hiss olunur. Bir neçə balıq növünün yaşadığı nohurda suyun tərkibi dəyişərək, zəhərlənmələrə səbəb ola bilir. Bundan başqa, göl bir çox köçəri quş üçün müvəqqəti dayanacaq yeridir. Zibil yığını birbaşa istirahət zonasına aparan yolun üzərində olduğundan, təkcə yerli sakinlərin deyil, ölkəyə gələn turistlərin də narazılığına səbəb olur.

Qeyd edək ki, sakinlər ərazinin zibillənməsinə səbəb kimi zibili atmaq üçün yetərli sayda metal konteynerlərin olmadığını göstərirlər. Onlar hesab edirlər ki, zibillərin atılması gündəlik olaraq təşkil edilsə, bu cür antisanitar vəziyyət yaranmaz. Həmçinin, onlar vurğulayırlar ki, yerli icra hakimiyyəti tərəfindən müəyyən edilməmiş yerlərdə zibilin atılmasını qadağan edən nişanlar yerləşdirilməlidir.

Çuxuryurd gölünün çirkləndirilməsi faktına münasibət bildirməsi üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) mətbuat xidmətinin rəhbəri İradə İbrahimova ilə əlaqə saxladıq. İ.İbrahimova bizimlə söhbətində bildirdi ki, bu məsələdən nazirliyin xəbəri var və buna görə Çuxuryurd gölünü zibilliyə çevirən bələdiyyə sədri 3000 min manat məbləğində cərimələnib. "Artıq nazirlik bununla bağlı tədbir görüb. Həmin yer tullantılardan təmizlənir. Əraziyə cavabdeh Şamaxı rayon Çuxuryurd bələdiyyəsinin sədri Sultanpaşa Məlikov barəsində akt və protokol tərtib olunub. O, vəzifəli şəxs qismində 3000 manat məbləğində cərimələnib. Bundan sonra tullantıların düzgün idarə olunması üçün bələdiyyə sədrinə icrası məcburi olan "məcburi göstəriş" verilib" - deyə bildirən İ.İbrahimovanın sözlərinə görə, hər yay mövsümündə nazirlik əməkdaşları bu kimi ərazilərdə olsa da, təlimatlar versə də, çox zaman əhali buna riayət etmək istəmir.

*"...buranı o ərazidə yaşayan sakinlər zibilləyirlər"*

"Bilirsiniz, o gölü biz zibilləmirik, buranı o ərazidə yaşayan sakinlər zibilləyirlər. Gölün ətrafında yaşayan insanlar özləri birbaşa təmizliyə riayət etməlidirlər. Qəribə olan da budur ki, sakinlər özləri özlərindən şikayət edirlər. Düzdür, bu əraziyə cavabdeh bələdiyyə tullantıların idarə edilməsində tam olaraq heç bir iş görməyib və ona görə də cərimələnib. Amma gəlin görək, cərimə ilə iş bitirmi? Əmin edirəm ki, cərimədən bir neçə ay sonra orada yenə də eyni mənzərə ilə üzləşəcəyik. Çünki belə hallar təcrübədə dəfələrlə təkrarlanır. Ətrafı çirkləndirən, zibili hara gəldi atan özümüzük, qohumlarımız, qonşularımızdır. Evimizin içindəki zibili çıxarıb evimizdən kənara atırıq, sonra da şikayət edirik. Deməli, sakinlər özləri nəsə etməlidirlər. Görəsən, niyə kənd sakinləri, qonşular, ağsaqqallar zibil atanlara qarşı çıxmır və onlar qınanmır? Yəqin ki, bələdiyyə sədri də eyni kənddə yaşayır və bu mənzərədən xəbərdardır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi nə qədər cərimə etməli, göstəriş verməlidir? Təbiətimizə öz evimiz kimi yanaşmağın vaxtıdır. Yenə də ümidimiz var ki, nəticə əldə olunacaq və ərazi bir daha çirkləndirilməyəcək" - deyə İ.İbrahimova vurğuladı.

**İradə SARIYEVA**

# Azərbaycanda təzə Quran yazmaq iddiasına düşən var

**İndiyə qədər müqəddəs Qurani-Kərim dilimizə bir neçə dəfə tərcümə edilib. Hətta Azərbaycanda Quranı nəzm şəklində tərcümə edənlər də olub. Son bir neçə ildə sosial şəbəkələrdə tanınmış gənc şair Şəhriyar Del Geraninin Quran yazdığına dair məlumatlar yer alır, bu məlumatlar da geniş müzakirə edilir.**



## Şəhriyar Del Gerani: *"Mən Quran yazmaq sözünü deməmişəm"*

Bir müddət bu mövzu gündəmdən düşsə də, təkrar olaraq yenidən sosial şəbəkələrin gündəmində yer alıb.

Şəhriyar Del Gerani "Facebook"dakı profilində bu barədə belə yazıb: "Yeni Quran kitabı yazıram. Bu, mənim iradəmdən kənar bir şeydir. Düzü, mənə dayanmadan diqtə olunur bu mövzuda yazmaq. Hər şeyi açıq-açığına deyə bilmirəm. Anlayışlı yanaşın, xahiş edirəm. Sağlıq olsun, gələn ilin payızına tamamlayaram, çox yəqin. Tam əminliklə deyirəm: bu Quran çağdaş ateistlərin və deistlərin suallarına tam olaraq cavab verəcək bir kitab olacaq. Xatırladım ki, sonuncu Quranın bir çox surələrinin (hekayətlərinin) üzərində ciddi redaktələr olunub. Yeni ayələr (misralar) isə tam olaraq orijinaldır. Xəbəriniz olsun ki, istər intellektual, istər ruhani, istərsə də bədii cəhətdən bu Quran kitabı bütün parametrlərdə daha dəqiq, daha mükəmməl olacaq. Səmimiyyətə qalsa, mən özüm də həddindən-ziyadə maraqlıyam bu kitabın nicat tapmasına. Allah böyükdür! Eşqlərimlə..."

Məsələyə sərt reaksiya verən tanınmış ilahiyyatçı İsmayıl Əhməd "Adam açıq-aşkar "Quran yazacağam" deyir, canfəşanlıqla onu müdafiə edənlər deyir tərcümə edir, tövbə edib və bu sayaq sayıqlamalar... Əvvəla Quran yazmaq təşəbbüsünə düşübsə, səhv edib... Əgər tərcümə etmək istəyirsə, onun ərəb dili səriştəsi varmı? Təbii ki yox, çünki bu adam doğma dilini səlis bilmir. Və bu, yazdığı cızmaqaralardan açıq-aşkar bəlli olur..." - deyə bildirib.

*İsmayıl Əhməd isə "Quran yazmaq təşəbbüsünə düşübsə, səhv edib..." - deyə yazıb*

Ş.D.Geraninin Quran yazması məsələsi bizim də diqqətimizi cəlb etdi və bu səbəbdən də onunla əlaqə saxladıq. Ş.D.Gerani "Bakı-Xəbər"ə bildirdi ki, onun bu statusu yeni deyil və o, 2015-ci ildə belə bir status yazıb. Müsahibimiz vurğuladı ki, o, yenidən Quran yazmır: "Bu, çoxdanın söhbətidir. Mən Quran yazmaq deməmişəm. Sadəcə, Quranın tərcüməsinə diqqət çəkmək istəmişəm, bildirmişəm ki, tərcümə redaktə olunmalıdır. Sadəcə, sözün metaforlarla deyilməsi var, mən bunu yaxşı bilirəm. Mən yazıçıyam, şairəm, bilirəm cümləni necə desəm, hara təsir edər. Mənə belə irad bildirənlər isə dili ancaq ərizə oxumaq səviyyəsində bilirlər. Axı ədəbiyyat oxumayıblar! Mən elə əllaməlik etmərəm! Mən İslam Universitetində oxumuşam, lap uşaqlıqdan Quranı öyrənmişəm.

Mən Quranın, demək olar, yarısını əzbər bilirəm. Bütöv bilirdim, unutmuşam sadəcə, məşğul olmadığıma görə. Mən ərəb və fars dillərində təməl bilgilərə malikəm. Məsləhət görərdim ki, Həzrət Əlinin "Nəhcül-Bəlağə"sini oxusunlar və həyatlarına tətbiq etsinlər. Və o adamlar heç vaxt Quran oxumayıblar. Quran oxuyan belə düşünə bilməz. Mən ən çox 2 kitabı oxumuşam, 8 dəfə "Səfillər"i, 7 dəfə Quranı".

***İradə SARIYEVA***

# Azərbaycana gələn və gedən turistlərin sayında ziddiyyətli rəqəmlərə görə məsuliyyət kimin üzərindədir...

**Son illər Azərbaycan turizm üçün əlverişli ölkələrdən biri kimi xarici turistlərin diqqətini çəkir. Bu gün ölkəmizin istənilən şəhərində, rayonunda müxtəlif ölkələrdən gələn xarici tursitlərə rast gəlmək olur.**



## Bahadur Bilalov: *"Bu istiqamətdə daha səhih və dolğun məlumatı Dövlət Statistika Komitəsi və Dövlət Turizm Agentliyi verir"*

Ölkəmizə gələn turistlərin sayı daha çoxdur, yoxsa ölkəmizdən xarici ölkələrə gedənlərin?

Bu sual ətrafında araşdırma apardıqda qarşımıza olduqca ziddiyyətli rəqəmlər çıxır. Məsələn, həftə ərzində yayılan informasiyaları saf-çürük etdikdə görürük ki, tutalım, Dövlət Statistika Komitəsi ölkəmizə gələn turistlərin sayının daha üstün olduğunu qeyd edir, başqa bir qurum isə əksini bildirir. Yaxud Dövlət Turizm Agentliyi bir rəqəm açıqlayır, ardınca başqa bir şirkət fərqli bir mənzərə ilə bizi qarşılaşdırır. Bu sahədə informasiyanın dağınıq, pərakəndə və ziddiyyətli olması ictiamiyyətdə, elə medianın özündə də bir çaşqınlıq, bir qeyri-müəyyənlik yaradır.

Məsələyə münasibət bildirən Turizm və Menicmentlik Universitetinin kafedra müdiri, turizm sahəsi üzrə azsaylı mütəxəssislərdən biri Bahadur Bilalov baki-xeber.com-a bildirdi ki, ölkəyə gələn və ölkədən gedən turistlərin sayının ziddiyyətli olması həqiqətən də ürəkaçan fakt deyil. O hesab edir ki, bu sahədə informasiya verilərkən onun səhihliyinə əhəmiyyət verilməlidir. "Hesab edirəm ki, şirkətlərin yaydığı rəqəmlərə inanmaq lazım deyil. Turizm şirkətləri istədikləri rəqəmləri söyləyə bilərlər, məsələ burasındadır ki, onlar statistika aparmır və bu halda onların məlumatları dəqiq ola bilməz. Bu istiqamətdə daha səhih və dolğun məlumatı Dövlət Statistika Komitəsi və Dövlət Turizm Agentliyi verir. Əvvəllər bu sahədə statistika aparan Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi idi. Əslində, bu qurumların da turistlərlə bağlı rəqəmləri üst-üstə düşmürdü. Ancaq keçən ilin aprel ayından Dövlət Turizm Agentliyi yarandı. Bu qurumun özünün statistika bölümü var və onlar artıq bu işlə də məşğul olurlar. Onlara müraciət edilməsi nəticəsində daha dəqiq informasiya almaq mümkündür".

*"Ölkəyə gələn və ölkədən gedən turistlərin sayını dəqiqləşdirmək birbaşa Dövlət Turizm Agentliyinin işidir"*

O təəssüflə qeyd etdi ki, bu sahədə yayılan yanlış informasiyalar cəmiyyətdə çaşqınlıq yaradır. B.Bilalovun sözlərinə görə, ölkəyə gələn və ölkədən gedən turistlərin sayının dəqiqləşdirilməsi birbaşa Dövlət Turizm Agentliyinin işidir, bu sahə ilə bağlı ictiamiyyətə bu qurum məlumat verməlidir:"Ölkəyə gələn və ölkədən gedən turistlərin sayını dəqiqləşdirmək birbaşa Dövlət Turizm Agentliyinin işidir. Onlar bu barədə araşdırma aparırlar.

Amma tendensiya onu göstərir ki, ölkədən gedən turistlərin sayı ölkəyə gələn turistlərin sayından hələ ki, üstünlük təşkil edir. Təəssüf ki, bu belədir. Lakin ildən-ilə ölkəmizə gələn turistlərin sayında artım var. Xüsusən də yeni-yeni ölkələr bu prosesə qoşulur. Deyək ki, 10 il bundan əvvəl maksimum 20 xarici ölkədən ölkəmizə turist gəlirdisə, indi artıq bu siyahı 100-ü keçib".

***İradə SARIYEVA***

# Alın yazısı hədər yazılmır...!

**Bayramınız Mübarək, əziz Müəllimlər! Bu dünyada iki nəfərin haqqı ödənməz deyiblər, bir ANANIN, bir MÜƏLLİMİN! Bu heç kəsin inkar edə bilməyəcəyi həqiqətdir. Kamal Abdullanın bir şeirində deyildiyi kimi, "Alın yazısı hədər yazılmır... " Bu doğrudan da belədir, müəllimlik bizim alın yazımızdır və bu fikrə şeirdən süzülüb gələn anlamlarla davam etmək istərdim...**

*Kim xatırlayar,*
*nədən başladıq,*
*Bu ömür ki var*
*- əvvəli hanı?*
*Necə yaşadıq,*
*necə yaşlandıq,*
*Payız da bitir*
*- xəzəli hanı?*
*Sənin özünün*
*Allahın varmış,*
*Sənin gözünün*
*içində imiş*
*Sənin Allahın*
*daha cavanmış,*
*Sənin Allahın*
*daha gözəlmiş.*
*Alın yazısı*
*hədər yazılmır,*
*Qayıdacaqdın*
*- taleyin budur.*
*Sənin üzündə*
*kədər yazılıb,*
*Gözün doludur,*
*qəlbin doludur.*

Bütün peşələr özəl xüsusiyyətlərinə görə müəyyən əhəmiyyət daşıyır və əlbəttə ki, hamısı həyatımızda önəmli yer tutaraq vacib hesab olunur. Amma müəllimlik peşəsi xarakter və prinsip etibarilə bütün peşələrdən öndə gedərək zirvədə dayanır. Özünəməxsus cəhəti "Docendo discimus", yəni daim öyrədərək daha çox öyrənməklə, bəşər övladlarının gələcəyinə məsuliyyət daşımaqla düzgün istiqamətlərə yönəltmək, dünyagörüşlərinin formalaşmasında mənəvi-intellektual dəstək olmaq, daimi yaradıcılığın inkişafında mühüm rol oynamaqdan ibarətdir. Saf və pak sənət olması baxımından daim cəmiyyətdə seçilən müəllimlik peşəsinin iş prinsipi birbaşa və müntəzəm elmi-nəzəri-praktiki biliklərlə əlaqədar olub, daim özünü inkişaf etdirməklə yanaşı tələbələri də inkişafa sövq etmək kimi ciddi missiyaları öz üzərinə götürən məsuliyyətli və çətin bir peşədir. İllərdir bu sahədə külüng vuran, tanıdığım müəllim ordusunun önündə addımlayan yalnız bir neçə müəllim adlarını sadalamq istərdim. Eyni ali təhsil müəssisəsində təhsil aldığım və çalışdığım zaman kəsiyində onların pedaqoji sahədə uzun və uğurlu yollarının şahidi olmuşam. Əsl ziyalı, bilikli, elmli şəxsiyyətlər olaraq yaddaşımızda xüsusi iz qoyan, elmi və qələmi ilə bu gün də xalqına və millətinə xidmət edən hörmətli akademik, xalq yazıçısı Kamal Abdulla, gənc müəllim və alimlərin elmi mühazirələrini maraqla izlədiyi hörmətli professor Qorxmaz Quliyev, dilçilik sahəsində öz möhürünü vurmuş dəyərli alim professor Fəxrəddin Veysəlov, hər zaman dünyagörüşü ilə seçilən və gözəl həmsöhbət olan professor Nailə xanım Sadıxova, yaddaşlarda iz qoyan, elmə, vətəninə və xalqına sevgini ehtiva edən cəssarətli çıxışları ilə sevilən professor Məsmə xanım Qazıyeva, yüksək inteligenti, şəxsiyyəti, gözəl insani keyfiyyəti ilə kafedra rəhbəri kimi hamının çox sevdiyi və hörmət bəslədiyi Ədalət xanım Abdiyeva, Sevdagül xanım Əliyeva, kafedra rəhbəri kimi gözəl idarəçiliyi və alicənablığı ilə seçilən dosent Şaban Şabanov, işləməkdən yorulmayan, elmi işlərə məsuliyyətlə rəhbərlik edən, ciddi və haqqlı iradlarıyla seçilən dosent Sevinc xanım Zeynalova, elmi işlərin fəal təşkilatçısı Sevda xanım İmanova və magistrlərdən tutmuş elmlər namizədlərinə qədər bir



çox müəllimin elmi işlərinin ərsəyə gəlməsində xüsusi zəhməti olan dosent Dilbər xanım Zeynalova, uzun illər yüksək intellekti ilə bizlərə örnək olan professor Dilarə xanım İsmayılova, Serbiya və digər xarici dövlətlərdə Azərbaycan mədəniyyətini və elmini layiqincə təmsil edən, tanıdan dosent Lalə xanım Məcidova, kübarlığı, yüksək mədəniyyəti və bacarığı ilə rəhbərlik etdiyi kollektivdə böyük hörmət və sevgi qazanan dosent Nərgiz xanım Seyidova, ziyalı ailənin layiqli davamçısı dosent Aytən xanım Hacıyeva, müəllimlərin hüququnun layiqli müdafiəçisi dosent Misgər Məmmədov və gözəl insan, gözəl dost musiqi üzrə mütəxəssis Gülnarə xanım Quliyeva kimi neçə-neçə yüksək şəxsiyyətli pedaqoq ordusu olduqca Azərbaycanın gələcəyinin ümidverici və gözəl olmasına inam daha da artır. Birmənalı şəkildə qeyd edə bilərik ki, adları sadalanan ziyalılarımızla yanaşı, adlarını çəkə bilmədiyimiz neçə-neçə hörmətli ziyalı müəllimlərimiz vardır ki, onların varlığı və zehni əməyi Azərbaycan xalqına böyük töhfədir. Öz müəllimlərimizə ehtiram əlaməti olaraq onu da mütləq vurğulamalıyıq ki, bugün biz müəllimlərin mütəxəssis kimi yetişməsində bizim də yüksək səviyyəli müəllimlərimiz olmuşdur. Bir çoxlarının artıq həyatda olmamalarına baxmayaraq, onların nurlu simaları əbədi olaraq qəlbimizdədir və onların dəyərli zəhməti bizim bugünkü fəaliyyətimizdə yaşayır və yaşayacaq. Bizim peşənin digər peşələrdən ən fərqli, maraqlı, ağır deməzdim, amma sonsuz zehni zəhmət tələb edən cəhətlərindən biri də odur ki, biz tək iş yerində öhdəliyimizi yerinə yetirmir, iş saatından sonra, bir sıra ailə-məişət məsələlərini yoluna qoymaqla yanaşı, gecə yarısınadək, masa üzərinə yorulmuş başımız əyilənədək öz sevimli işimizdən ayrılmadan çalışırıq...hətta məvacibimizin azlığı müqabilində belə, bunu nəzərə almadan belə... Nə deyim...Nə qədər zehni əmək sərf etsək də, etiraf etməliyik ki, MÜƏLLİMlik doğrudan da ŞƏRƏFLİ peşədir və bu böyük müəllim ordusu sıralarında xidmət edən hər bir müəllim şərəfli yoldadır... Zəhməti, əziyyəti qədər böyük olan adımız bizi cəmiyyətin önəmli , vacib və əhəmiyyətli şəxsi edir!.. Bu ada layiq olaq! Layiq olaq ki, layiqli, keyfiyyətli və dəyərli vətəndaşlar yetirə bilək!...Bu yolda sənə böyük uğurlar diləyirik, əziz MÜƏLLİM! Müəllim adının arxasında səbr, təmkin, bilik, bacarıq, humanistlik, təlim, tərbiyə, sözün əsl mənasında insanı fərddən şəxsiyyətə çevirən bir ali varlıq dayanır. Bu ada layiq olaq! Bu adın layiqli daşıyıcıları olmaq arzusuyla əziz MÜƏLLİMLƏR bayramınızı təbrik edir və sizlərə ÇOX SAĞ OLUN deyirik!

***Nigar HAQVERDİYEVA***
***ADU-nun Beynəlxalq münasibətlər və Regioşünaslıq fakültəsinin nəzdində Xarici dillər kafedrasının baş müəllimi***

**P.S. Ancaq vacib olan bir məqamı, bunu da etiraf etmək olar, vurğulamaq istərdik ki, bizi yaxşı bir müəllim kimi yetişdirən, inkişaf etdirən həm də katablardır.Yəqin hamı razılaşar ki, hamımızın ən birinci və ən ümdə bir "müəllimi" var, o da KİTABdır. İstəməzdim müasir informasiya texnologiyalarının mühüm rol oynadığı bir dövrdə kitablar arxa plana keçsin, unudulsun, axı bizi biz edən, kamilliyə aparan möcüzə kitablardır, bu baxımdan bu günü həm də kitablarımızın da bayramı hesab etmək olar!**



# Polis Binəqədidə narkotik vasitələrin satışı ilə məşğul olan şəxslərə qarşı xüsusi əməliyyat keçirdi

**Binəqədi Rayon Polis İdarəsi 43-cü Polis Bölməsi əməkdaşları tərəfindən Binəqədi qəsəbəsinin müxtəlif nöqtələrində narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxslərə qarşı növbəti əməliyyat tədbiri həyata keçirilib.**

Kompleks əməliyyat zamanı narkotik vasitələrin satışı ilə məşğul olan Binəqədi qəsəbəsi sakinləri, əvvəllər məhkum olunmuşlar Yusif Allahverdiyev, Nicat Novruzlu, Elçin Həsənov və Heybət Abbasov saxlanıb. Onların üzərinə baxış zamanı şəxsi istehlak miqdarından artıq çəkidə narkotik vasitə olan heroin və psixotrop maddə olan metamfetamin aşkar olunaraq götürülüb. Saxlanılan şəxslər ifadələrində narkotik vasitələrin dövriyyəsi ilə məşğul olduqlarını etiraf ediblər.

Faktla bağlı 43-cü Polis Bölməsində toplanan materiallar Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib, araşdırmalar davam etdirilir.

# Orta məktəb buraxılışlarında ən çox "2-lər" kimya və xarici dil fənlərindən alınıb

**2018-ci ildə XI sinif şagirdləri üçün keçirilən buraxılış imtahanlarında "2" alanların faiz göstəriciləri açıqlanıb. "Abituriyent" jurnalının 12-ci sayında qeyd olunur ki, 2018-ci ildə XI sinif şagirdləri üçün keçirilən buraxılış imtahanlarında Azərbaycan dili, xarici dil və kimya fənlərindən "3" qiymət alanlar riyaziyyat və rus dili fənlərindən "4" qiymət alanlardan daha çoxdur.**



Jurnalda yazılır ki, ən pis göstəricilər xarici dil və kimya fənni üzrə, ən yaxşı göstəricilər isə rus dili fənni üzrə olub: "2" qiymət alanların nisbi sayı Azərbaycan dili fənni üzrə 15.70%-ə, riyaziyyat fənni üzrə 19.45%-ə, rus dili fənni üzrə 6.46%-ə, xarici dil və kimya fənni üzrə 22.06%-ə, "4" və "5" qiymət alan şagirdlərin nisbi sayı Azərbaycan dili fənni üzrə 49.93%-ə, riyaziyyat fənni üzrə 53.15%-ə, rus dili fənni üzrə 58.97%-ə, xarici dil/kimya fənni üzrə 41.97%-ə bərabərdir".

Buraxılış imtahanlarında iştirak edən şagirdlərin kimya və xarici dil fənnindən "2" qiymət alması barədə fikir bildirən təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında bunları qeyd etdi: "Son üç il ərzində keçirilən buraxılış və qəbul imtahanlarında iştirak edənlərin kimya, xarici dil və riyaziyyat fənnindən göstərdikləri nəticə aşağıdır. Bu onunla bağlıdır ki, orta məktəblərdə bu fənni tədris edən müəllimlərin bilik və bacarıqları müasir dövrün tələblərinə cavab vermir. Regionlarda xarici dil fənnini tədris edənlərin əksəriyyəti kollec məzunlarıdır. Orta ixtisas təhsilli müəllimlərin verdiyi biliklə bakalavr və ya magistrlərin tədris etdiyi proqram eyni deyil. Ali təhsilli müəllimlərin çalışdığı məktəblərdə buraxılış imtahanlarının nəticəsi daha yüksək olur.

### *Kamran Əsədov: "Orta ümumtəhsil məktəblərində xarici dilin tədrisində ciddi problem mövcuddur"*

Şagirdlərin kimya fənnindən zəif nəticə göstərməsinin səbəbi məktəblərdə laboratoriya və texniki avadanlıqların yetərli səviyyədə olmaması ilə bağlıdır. Müasir standartlara cavab verən laboratoriyası olan tədris müəssisələrində şagirdlərin kimyadan göstərdiyi nəticə yüksək olur.

*"Müəllimlər şagirdlərinin buraxılış imtahanlarındakı nəticələrinə görə əməkhaqqı alarsa, onların göstəricisi zəif olmaz"*

Onu da bildirim ki, diaqnostik nəticələri yüksək, eyni zamanda, gənclərin çalışdığı məktəblərdə şagirdlərin buraxılış imtahanlarında göstərdiyi nəticə yaxşı olur. Yaşı 55-dən yuxarı, diaqnostik göstəriciləri zəif olan müəllimlərin çalışdığı məktəblərdə şagirdlərin buraxılış imtahanında göstərdiyi nəticə ürəkaçan olmur. Bu problemin qarşısını almaq üçün məktəbləri göstəricilərə görə ayırmaq lazımdır. Diaqnostik nəticəsi yüksək olan müəllimlə diaqnostik göstəricisi zəif olan pedaqoqa eyni əməkhaqqı verilməməlidir. Belə olarsa, müəllimlər arasında rəqabət yaranar".

Həmsöhbətimiz onu da əlavə etdi ki, müəllimlər şagirdlərinin buraxılış imtahanlarındakı nəticələrinə görə əməkhaqqı alarsa, onların göstəricisi zəif olmaz.

Orta ümumtəhsil məktəblərində xarici dilin tədrisində ciddi problem mövcuddur. Bununla bağlı dövlət tərəfindən xüsusi standartlar tətbiq olunmalıdır".

**Günel CƏLİLOVA**

# 0-13 yaşlı uşaqlarımızda sifilis hardandır...

**Nikaha daxil olmaq istəyən şəxslərin icbari tibbi müayinədən keçməsini nəzərdə tutan qərar ölkədə tüğyan edən yeni sosial bəlanın aşkara çıxmasına vəsilə oldu. Bəlli oldu ki, genefond üçün birbaşa təhlükə hesab edilən sifilis xəstəliyinə yoluxma halları artır.**



Məlumat üçün bildirək ki, sifilis cinsi yolla keçən xəstəlikdir. Xəstəlik daxili orqanlara, ürəyə təsir etməklə yanaşı, sonsuzluğa da səbəb olur. Onun hətta anadan dölə keçmə ehtimalı da yüksəkdir.

Sifilis xəstəliyinə yoluxanların sayı günü-gündən artır.Açıqlanan statistik rəqəmlərə əsasən, 2018-ci ildə ölkə üzrə sifilis diaqnozu ilə ilk dəfə qeydə alınan xəstələrin sayı 981 nəfər olub. Adıçəkilən xəstəliyə yoluxanlar arasında uşaqlar da var. Qeyd olunur ki, 0-13 yaş qrupu üzrə 20 nəfər bu xəstəliyə tutulub. Onlardan 15 nəfəri kişi, beşi isə qadındır.

14-17 yaş qrupları üzrə isə iki qadında bu xəstəlik qeydə alınıb. Bu yaş qrupu üzrə kişilərdə xəstəlik olmayıb.

Sifilis xəstəliyi əsasən böyüklərdə daha çox qeydə alınırdı. Uşaqlar arasında sifilis xəstəliyinin yayılmasının səbəbi nə ilə bağlıdır?

### *Fərqanə Əliyeva: "Uşaqlar arasında sifilis xəstəliyi əsasən anadangəlmə olur"*

Həkim-dermatoloq Fərqanə Əliyeva bildirdi ki, uşaqlar arasında sifilis xəstəliyi daha çox anadangəlmə olur: "Məlumat üçün bildirim ki, xəstəlik ilk 3 il ərzində aşkar edilərsə, buna erkən anadangəlmə sifilis, 13 yaşa qədər müəyyən olunarsa, buna gecikmiş anadangəlmə sifilis deyilir. Ancaq son zamanlar daha çox xəstəliyin gizli formaları qeydə alınır. İlk dövrlər sifilis əlamətləri hiss edilmir və təsadüfi olaraq aşkara çıxır".

Həmsöhbətimiz onu da vurğuladı ki, 12-13 yaşında şəxslər cinsi əlaqə zamanı da sifilisə yoluxa bilər: "14 yaşdan yuxarı bu xəstəlik aşkar edilirsə, bunun səbəbi cinsi yolla yoluxmadır. Danılmaz faktdır ki, hazırda yeniyetmələr arasında cinsi fəaliyyət dövrü daha tez başlayır və bu cür xəstəliyə yoluxma halları da qeydə alınır".

*"Sifilisin müalicəsi ilə birbaşa dəri-zöhrəvi həkimləri məşğul olmalıdırlar"*

F.Əliyevanın sözlərinə görə, uşaqlar arasında sifilis xəstəliyinin qeydə alınması səbəblərindən biri də eyni xəstəlikdən əziyyət çəkən ananın uşağına süd verməsidir. Eyni zamanda, xəstəlik daşıyıcısı körpə uşağı öpərsə, bu yolla da uşaq sifilisə yoluxa bilər.

Həkim-ekspert bildirdi ki, sifilis daxili orqanlara, ürəyə, aorta damarına təsir edir: "Sifilisə yoluxanlar məcburi müalicə olunmalıdırlar. Sovet dövründə xəstəlik aşkarlananda onun mənbəyi araşdırılırdı, kontaktda olduğu şəxslər, ailə üzvləri yoxlanılırdı. İndi isə özəl klinikaların əksəriyyəti sifilisi, qonoreyanı müalicə etdiyini bildirir. Amma xəstəliyin necə müalicə olunduğu, müraciət edənlərin statistikası açıqlanmır. Nəticədə statistik məlumatlar itir. Statistika isə xəstəliyin güzgüsü hesab olunur. Mütəxəssis olmayan şəxslər xəstəliyə düzgün yanaşmırlar. Sifilisin müalicəsi ilə birbaşa dəri-zöhrəvi həkimləri məşğul olmalıdırlar. Bəzən həyat yoldaşının səhvi ucbatından sifilisə yoluxan qadın həkimə müraciət etməyə çəkinir. Türkəçarə və ya ara həkimlərinə müraciət edirlər. Bu isə çox zaman tək qadına deyil, eyni zamanda, onun uşağına da tısir edir. Buna görə də təbliğat aparmaq lazımdır".

**Günel CƏLİLOVA**

№ 180 (4078) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

9 OKTYABR 2019-cu il

www.baki-xeber.com

## Türkün 2200 il öncə səhrada yaratdığı möcüzə - 5272 km uzunluğunda yeraltı su kanalları...

**Çin dedikdə, bir çox insanın ağlına gələn Böyük Çin səddi olur. Baxmayaraq ki, Böyük Çin səddi deyilən bu divarlar çinlilərin Türklərdən müdafiə olunması üçün tikilib.**



Amma Uyğur türklərinin yaşadığı Türküstanın Turfan bölgəsində Tanrı dağları adlanan ərazidən 2200 il bundan öncə ümumi uzunluğu elə uzunluğu təqribən Böyük Çin səddi divarları uzunluğunda - 5272 km uzunluğu olan yeraltı su kanaları çəkməsi, günümüzdə dünyanın möcüzələrindən biri hesab edilir. "Milli.Az" bildirir ki, çinlilər bunu Böyük Çin səddi divarlarından sonra ikinci möcüzə hesab edirlər. Uyğur türklərinin yerin altında çəkdikləri bu su kanalı Böyük Çin səddindən daha möhtəşəmdir. İnsanların suya olan ehtiyacını ödəyən bu yeraltı su şəbəkəsi indi də mütəxəssisləri çox heyrətləndirməkdədir. Çünki, Turfan bölgəsi özü dəniz səviyyəsindən aşğı olan bir ərazidə yerləşir. Turfan ərazisi iqlim şəraitinə görə son dərəcə quraqlıq bir bölgədir. Quraqlıq olduğundan insanlar sudan çox böyük əziyyət çəkirlər. İnsanların su problemini həll etmək üçün 2200 il bundan öncə Tanrı dağlarından Turfan istiqamətinə ümumi uzunluğu 5272 km olan yeraltı su kanalları çəkilib. Məhz bundan sonra quraqlıq ərazidə "cənnət-məkan" yaradıblar. "Kəhriz kanalı"nı adını alan bu yeraltı kanallar Tanrı dağından 60km-lik quraq səhranın altından keçərək Turfan şəhərinə yetir. Yeraltı kanallar 110 metr dərinlikdən qazılmağa balanılıb. Yeraltı su kanallarının keçdiyi ərazilərin üzərindən müəyyən məsafələrdə quyular açılıb. Bu vasitə ilə kanaldan su götürülərək əkin sahələri suvarılıb. Demək olar ki, Turfan şəhərinin suya olan ehtiyacının böyük bir qismi bu yeraltı su kanalı vasitəsi ilə təmin edilib. Bundan əlavə, Turfan bölgəsi quraqlıq və isti bölgə olduğundan insanlar suyu uzun zaman saxlamaq üçün yeraltı quyulardan istifadə edib. Yəni, suyun daha gec buxarlanması üçün yerin altında sərin yerdə saxlamağa üstünlük veriblər.

## Elan

Kərimov Oqtay Vəli oğluna 19.04.1997-ci ildə verilmiş №002504 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Abbasov Tacəddin İlyas oğlunun adına, Sabunçu rayonu, Ləhiş bağlar massivində yerləşən 4115 a saylı bağa məxsus çıxarış və digər sənədlər itdiyi üçün etibarsız sayılır

Həmzəyev Fərid İlqar oğluna Xətai rayonu Hərbi Komissarlığı tərəfindən verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Mənsimova Nazilə Mustafa qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Çingiz Mustafayev küçəsi, ev 38 ünvanına verilmiş çıxarış (seriya RX N0935704) itdiyi üçün etibarsız sayılır.

Şükürova Dilbər Mehman qızına Bakı Biznes Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həmidov Cümşüd Ağakərim oğlunun adına, Abşeron rayonu, Saray qəsəbəsi, Badam bağlarında yerləşən 20.52 sot torpağın (JN-1023 kod 30800086) dövlət aktı itdiyi üçün etibarsız sayılır.

## "Azercell" ilə ən sevilən filmləri izləmək artıq daha asandır!

**Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell" abunəçilərini müasir dövrün trendlərinə uyğun xidmətlərlə sevindirir. Texnoloji yeniliklərin tətbiqi vasitəsilə abunəçilərinə ən yaxşı müştəri təcrübəsi yaşatmağı hədəfləyən "Azercell" ilə film seyr etmək artıq çox asandır. Belə ki, "Azercell"in təklif etdiyi "İVİ"xidməti istənilən zövqə uyğun 100 000-dək filmi məkandan asılı olmayaraq, yüksək keyfiyyətdə izləmək imkanı verir.**

"İVİ" xidmətindən günlük istifadə haqqı 0.40 AZN, aylıq abunəlik isə 5.99 AZN təşkil edir. Günlük abunəlik üçün GUN, aylıq abunəlik üçün AY açar sözünü 3333 qısa nömrəsinə göndərmək kifayətdir."İVİ"-yə ilk dəfə qoşularkən, günlük abunəliyi seçən istifadəçilər 7 gün, aylıq abunəliyi seçən istifadəçilər isə 14 gün müddətində xidmətdən ödənişsiz istifadə edə biləcəklər. iOS və Android əməliyyat sistemlərini dəstəkləyən "İVİ" tətbiqini Applestore və ya Google Play vasitəsilə yükləmək mümkündür.Məlumat üçün bildirək ki, müxtəlif janrlarda filmləri özündə cəmləyən bu xidmət, eyni zamanda, 5 müxtəlif cihazda, ən əsası isə reklam olmadan filmləri seyr etmək imkanı verir.

Tətbiqi yüklə və ödənişsiz istifadə imkanından faydalanmağa tələs!

"Azercell" ilə rəqəmsal dünyanın ən son trendləri artıq daha əlçatandır!

Xidmət barədə ətraflı məlumat https://www.azercell.com/az/personal/services/partner_services/ivi/ səhifəsində qeyd edilib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar"ın "Full" paketləri ilə qalıq bonusları növbəti ayda istifadə et!

**Məhsul və xidmətlərini hər zaman müştərilərinin tələblərinə uyğun şəkildə formalaşdıran "Nar", abunəçilərinə ən sərfəli təkliflərdən olan "Full" paketini təqdim etməkdədir. "Full" paketlərini seçən "Nar" abunəçiləri internet və dəqiqə bonuslarını sərfəli qiymətə əldə etməklə yanaşı, ay ərzində istifadə etmədikləri bonusları növbəti aya keçirə bilirlər.**

Azərbaycan mobil rabitə bazarında yalnız "Nar" abunəçilərinin yararlana bildiyi "Çevir" xidməti isə "Full" istifadəçilərinə ehtiyaclarına uyğun şəkildə dəqiqələri meqabaytlara və ya əksinə, meqabaytları dəqiqələrə dəyişmək imkanı verir.

Özündə bol danışıq, meqabayt və digər bonusları birləşdirən 6 müxtəlif "Full" paketi abunəçilərin də marağına səbəb olub. Belə ki, tarifə qoşulanların sayı son bir ildə iki dəfə artıb.

Sərfəli imkanlar təqdim edən "Full" paketlərinə qoşulmaq və daha ətraflı məlumat əldə etmək üçün http://www.nar.az/full səhifəsinə daxil ola bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,6%-ni əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.





**Qoç** - Səhər saatlarından etibarən fəal olun, rəqibləri üstələməyə çalışın. Çətin, həlli ağır təsir bağışlayan problemlərin çözülməsində təşəbbüs və qeyri-adi variantlar məsləhətli davranışdır.



**Buğa** - Səhər saatlarından etibarən yalan ümid və vədlərə aldanmayın. Əsas planınıza riayət edin. Səhər işə gedəndə evdəki elektrik əşyalarının söndürüldüyünü yoxlayın. Çətinliyi çözməyə çalışın.



**Əkizlər** - Günün ilk yarısı uğur vəd edir. Pozitiv olun. Ən kiçik çətinlik və cüzi problemlər sizdə bədbinlik yaratmasın. Əhvalınızdakı harmoniyanın pozulmasına imkan verməyin. İşlərdə zəhmətkeş olsanız, səyləriniz yaxşı nəticə verəcək.



**Xərçəng** - Yeni işlərə başlamazdan əvvəl əvvəlki işləri tamamən başa vurun. Yarımçıq qalmış işlər arzuolunmaz ballast rolunu oynaya bilər. Böyük fiziki və intellektual gərginlik tələb edən layihədə tələsmədən irəliləyin.



**Şir** - Kollektivdə mühit gərginləşə bilər. Münasibətlərin aydınlaşdırılmasına çalışmayın. Xüsusilə də qadınlarla dartışmayın. Fiziki işlə məşğul olmaq, əşya daşımaq, məşq etmək, piyada gəzmək çox xeyirdir.



**Qız** - Bu gün az qala hər addımda sürpriz, qəfil hadisə və ya gözlənilməz söz ilə qarşılaşa bilərsiniz. Durumun təhlükəsizliyi kiminlə işləməyinizdən və münasibətlərinizin hansı səviyyədə tənzimlənməsindən asılıdır.



**Tərəzi** - Günün ilk yarısında süst davranmayın, fəal olun. Daxili şübhələrinizi səsləndirməyin. Hansısa insandan bədgüman olsanız, fikrinizi və ya mövqeyinizi bəyan etməyin. Yaxın ətrafınızdakı insanlara boş vədlər verməyin.



**Əqrəb** - Adət etdiyiniz işlərlə məşğul olun, ənənəvi proseslərə üstünlük verin. Sürətli qərarlar, kreativ yanaşma, böyük zaman və ya maliyyə tələb edən işlərə başlamayın. Faydalı əlaqələr, indiyədək nail olduğunuz təmaslar dadınıza çata bilər.



**Oxatan** - Səhər saatlarında qarşınızda çox yollar açılacaq. Şansları yetərincə dəyərləndirməyə çalışın. Məqsədlərə çatmaq, niyyətləri reallaşdırmaq üçün imkanlar var. Günün ikinci yarısında gərginlik, daxili təbəddülatlar istisna deyil.



**Oğlaq** - Səhər saatlarından etibarən fəal çalışın. Yaradıcı olun, problemlərin həllində orijinal variantlardan yararlanın. Belədə rəhbərlik sizi yetərincə dəyərləndirəcək, məqsədə doğru daha sürətlə irəliləmək imkanları qazanacaqsınız.



**Dolça** - Emosiyaların əsirinə çevrilməyin. Fəaliyyət müstəvisində formalaşa biləcək ən ağır situasiyada belə, düşünülməmiş addım atmayın. Müstəqil işləsəniz, cəhdləriniz yaxşı bəhrə verəcək.



**Balıqlar** - Günün ilk yarısında ətrafınızdakı situasiyaya diqqətlə nəzər salın. Zəruri fəaliyyət planını hazırlayın. Günün ikinci yarısında səbrli və təmkinli davransanız, qarşınıza çıxacaq problemləri asanlıqla həll edə bilərsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən bahalı avtomobilləri...

**Dodaq uçuqladan satış qiymətləri ilə dünyanın gündəminə oturan avtomobil modelləri hər il lüks avtomobil istehsalçıları arasında böyük rəqabətə səbəb olur.**

"Milli.Az" xəbər verir ki, məhdud sayda və ya fərdi sifariş əsasında istehsal olunan avtomobillər motor gücü, dizaynı ilə də yaddaşlarda qalmağı bacarır. Dünyanın ən bahalı avtomobil modellərini təqdim edirik. 1.Aston Martin Vulcan. Qiyməti: 2,3 milyon dollar. 2. Ferrari F60 Amerika. Qiyməti: 2,6 milyon dollar. 3. Aston Martin Valkyrie. Qiyməti: 2,6 milyon dollar. 4. Paqani Huayra BC. Qiyməti: 2,6 milyon dollar. 5. Laferrari FXX K. Qiyməti: 2,7 milyon dollar. 6. Mercedec AMG One. Qiyməti: 2,7 milyon dollar. 7. Bugatti Chiron. Qiyməti: 2,9 milyon dollar. 8. Ferrari Pininfarina Sergio. Qiyməti: 3 milyon dollar. 9. Bugatti Centodieci. Qiyməti: 7,2 milyon dollar. 10. Mercedec-Benz Maybach exelero. Qiyməti: 8 milyon dollar. 11. Roll-Royce Sveptail. Qiyməti: 13 milyon dollar. 12. Bugatti La Voiture Noire. Qiyməti: 19 milyon dollar.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.